İlk dəfə olaraq ağır neftlər qrupuna daxil olan Muradxanlı və Balaxanı yatağlarından çıxarılan aqreqativ dayanıqlı emulsiyaların dağıdılmasına ayrı-ayrı reagentlərin və onlar əsasında hazırlanmış kompozisiyaların təsir effekti laboratoriya şəraitində öyrənilmişdir.Laboratoriya tədqiqatları zamanı tədqiq olunan neft nümünələrin səthi gərilməsinə, bərkimə temperaturuna və həmçinin mühiin korroziya sürətinə də təsir etmə effektivliyi tədqiq olunmuşdur.Reagentlərin davamlı su-neft emulsiyasının parçalanmasına təsiri 20 və 60^{0}C temperaturlarda aparılmışdır. Proses zamanı deeemulsasiyaedici agent kimi ND-12, Qossipol qətranı, Disulfan-4411, Alkan, BAF reagentlərindən və Alkan+ND-12 reagentlərinin 1:3 (A), ND-12 + Qossipol qətranının 1:1 (B), BAF+ND-12+Qossipol qətranı+Dissolvan-4411 reagentlərinin 1:1:1:1 (C) nisbətində olan kompozisiyalardan istifadə edilmişdir.Aparılmış çoxsaylı təcrubələrin nəticələrindən məlum olmuşdur ki, neft nümünələrində 20ºC-də reagentsiz , ND-12, Dissolvan-4411, Alkan, Qossipol qətranı, BAF, A, B və C reagentləri 800q/t əlavə olunduqdan sonra qalıq suyun miqdarı uyğun olaraq Beləliklə, nəticələrin müqayisəli təhlili göstərmişdir ki, tədqiq olunan reagentlərdə məhz B kompozisiyanın ən yüksək deemulsasiya edici təsir effektinə malikdir. Kompozisiyaların 800 q/t miqdarının Muradxanlı və Balaxanı su-neft emulsiyasında elektrokimyəvi korroziya sürətinə təsirinin tədqiqi zamanı ən yüksək təsir effekti məhz yenə B kompozisiyasında müşahidə edilmişdir. Belə ki, B kompozisiyanın Muradxanlı neft nümunəsində mühafizə effekti 98,1%, Balaxanı neft nümunəsində isə 97,8% olmuşdur. Neft nümünələrin səthi gərilməsinin və donma temperaturunun azalmasına daha yüksək təsiri məhz C kompozisiyası göstərir. Qeyd olunan kompozisiya 800 q/t optimal qatılığında Muradxanlı neft nümunəsinin donma temperaturunu +10ºC-dən +8ºC-yə, Balaxanı neft nümunəsinin donma temperaturunu isə +6ºC-dən -3,3ºC kimi, uyğun olaraq səthi gərilməni isə 28,5N/m^2-dən 12,9N/m^2-a və 25,4N/m^2 -dən 10,2N/m^2 -ə qədər azaldır

Açar sözlər:kompozisiya, su-neft emulsiyaları, neft, deemulqatorlar, deemulsasiya, susuzlaşdırma, çökdürmə, korroziya, səthi gərilmə, lay suyu, butulka sınağı, donma temperaturu.

STUDY OF MULTIFUNCTIONAL PROPERTIES OF REAGENTS IN LABORATORY CONDITIONS

ABSTRACT

For the first time, the effect of individual reagents and the compositions based on them on the dissolution of aggregate stable emulsions extracted from the Muradkhanli and Balakhani deposits, which are included in the group of heavy oils, was studied in laboratory conditions. The effect of reagents on the breakdown of continuous water-oil emulsion was studied at temperatures of 20 and 600C. During the process, ND-12, Gossypol resin, Disulfan-4411, Alkan, BAF reagents and Alkan+ND-12 reagents 1:3 (A), ND-12 + Gossypol resin 1:1 (B), BAF+ND were used as deemulsifying agents during the process. -12+Gossypol resin+Dissolvan-4411 reagents in a ratio of 1:1:1:1 (C) were used. From the results of numerous experiments, it was found that in oil samples at 20ºC without reagents, ND-12, Dissolvan-4411, Alkan , gossypol resin, BAF, the amount of residual water after adding 800g/t of reagents A, B and C. Thus, the comparative analysis of the results showed that B has the highest demulsifying effect of the composition among the studied reagents. During the study of the effect of 800 g/t of compositions on the rate of electrochemical corrosion in Muradkhanli and Balakhani water-oil emulsion, the highest effect was observed in composition B. Thus, the protective effect of composition B was 98.1% in the Muradkhanli oil sample, and 97.8% in the Balakhani oil sample. It is composition C that has a higher effect on the reduction of surface tension and freezing temperature of oil samples. The mentioned composition at an optimal density of 800 g/t increases the freezing temperature of the Muradkhanli oil sample from +10ºC to +8ºC, and the freezing temperature of the Balakhani oil sample from +6ºC to -3.3ºC, and the corresponding surface tension is 28.5N/m2- from 12.9N/m2 and from 25.4N/m2 to 10.2N/m2

Keywords: composition, water-oil emulsions, oil, demulsifiers, deemulsification, dehydration, precipitation, corrosion, surface tension, reservoir water, bottle test, freezing temperature

ИССЛЕДОВАНИЕ МНОГОФУНКЦИОНАЛЬНЫХ СВОЙСТВ РЕАГЕНТОВ В ЛАБОРАТОРНЫХ УСЛОВИЯХ

РЕЗЮМЕ

Впервые в лабораторных условиях изучено влияние индивидуальных реагентов и составов на их основе на растворение агрегативно-устойчивых эмульсий, добываемых из месторождений Мурадханлы и Балаханы, входящих в группу тяжелых нефтей. Влияние реагентов на разрушение сплошной водонефтяной эмульсии изучали при температурах 20 и 600°С. В процессе смешивались НД-12, смола Госсипол, Дисульфан-4411, Алкан, реагенты БАФ и Алкан+НД-12 1:3 (А), НД-12 + смола Госсипол 1:1 (Б), БАФ+НА используются в качестве деэмульгаторов в процессе. Использовали реагенты -12+Госсипол смола+Диссольван-4411 в соотношении 1:1:1:1 (С). По результатам многочисленных опытов установлено, что в пробах нефти при 20ºС без реагентов НД-12, Диссольван-4411, Алкан, госсипол смолы, БАВ количество остаточной воды после добавления 800г/т реагентов А, Б и В. Таким образом, сравнительный анализ результатов показал, что Б обладает самым высоким деэмульгирующим действием состава среди исследуемых реагентов. При изучении влияния 800 г/т составов на скорость электрохимической коррозии в мурадханлинской и балаханской водонефтяной эмульсии наибольший эффект наблюдался у состава Б. Таким образом, защитный эффект состава Б составил 98,1% в пробы нефти Мурадханлы и 97,8% в пробе нефти Балаханы. Именно состав С оказывает большее влияние на снижение поверхностного натяжения и температуры замерзания проб нефти. Указанный состав при оптимальной плотности 800 г/т повышает температуру замерзания пробы нефти Мурадханлы с +10ºС до +8ºС, а температуру замерзания пробы балаханской нефти с +6ºС до -3,3ºС, а соответствующее поверхностное натяжение составляет 28,5 Н/м2 - от 12,9 Н/м2 и от 25,4 Н/м2 до 10,2 Н/м2

Ключевые слова: состав, водонефтяные эмульсии, нефть, деэмульгаторы, деэмульгирование, обезвоживание, осаждение, коррозия, поверхностное натяжение, пластовая вода, бутылочный тест, температура замерзания.

Giriş

Hal-hazırda dünyanın iri neft yataqları hasilatının son mərhələsinə çatmışdır ki, bunun da nəticəsində sulaşma miqdarı 80-90%ə qədər arta bilir. Sulaşma faizinin artması hasilatın çətinləşməsinə, neftin reoloji xüsusiyyətlərinin dəyişməsinə, xüsusən də özlülüyün artmasına səbəb olur. Neftlərin hasilatı zamanı su-neft emulsiya formalarının yaranması qaçılmazdır. Yüngül neftlərin aktiv resurslarının azalması hesabına dünyada yüksək özlülüklü ağır neftlərin hasilat miqdarının artmasında tendensiyalar aşkar edilmişdir. Aşağı və orta qatılıqlı dispers sistemlərdən ibarət olan neftlərdən fərqli olaraq, yüksək özlülüklü ağır neftlər yüksək qatılıqlı assosiyalaşdırılmış dispers sistemlər hesab edilir ki, bu da onların hasilatı, nəql etdirilməsi və emalı proseslərinin effektivliyində öz əksini tapır.

Lay suları və neftlərin intensiv qarışması nəticəsində yaranan su-neft emulsiyaları asfalten, qatran,parafin, naften turşuları və gil və gilə bənzər bərk maddələrin təsirindən stabilləşərək dayanıqlı formaya keçir. Dayanıqlı xam neft emulsiyalarının ən vacib xarakteristik xüsusiyyətlərindən biri də fazalararası özlü- elastiklikdir.Asfaltenlərin damcıların bir-birinə yapışmasına mane olması fazalararası özlü-elasikliyi gücləndirir. Bu cür dayanıqlı emulsiyalar neft sektorunda hasilat mərhələsindən emal mərhələsinə qədər bir sıra problemlərin yaranmasına səbəb olur. Bu problemlərdən biri boru kəmərlərinin, neft saxlama çənlərinin,nasosların, hasilat və emal avadanlıqlarının korroziyası, eləcə də, su-neft emulsiyasında dispersləşmiş suyun olması neftin özlülüyünü artması səbəbindən boru kəməri ilə nəql zamanı yaranan çətinliklərdir [1-9]. Korroziya neft-qaz yataqlarının işlənməsində, nəqlə hazırlanmasında və nəqlində mühim məsələlərdəndir. Neft-qaz sənayesində korroziya aqressivliyinin artmasının səbəbi lay sularının yüksək minerallaşması, həllolmuş hidrogen sulfid, karbon qazı və bakteriyaların olmasıdır. Lay

sularının tərkibində minerallar nə qədər çox olarsa emulsiyalı neft dispers sistemində də həmin minerallar emulsiyanın dayanıqlığını artırmaqdan əlavə mühitin aqresivliyini artırır.Mühitin aqressivləşməsi metal avadanlıqların istismar müddətini azaldır və təmir xərclərini artırır. Nəticədə torpaq və su hövzələri neft və neft məhsulları ilə çirklənir, bu da həm ekoloji, həm də iqtisadi baxımdan problemlərin yaranmasına səbəb olur. Bu baxımdan da neftin tərkibindən ballast suyunun kənarlaşdırılması vacibdir. Korroziya sürəti məhz su mühitində daha güclü olduğuna görə suyun miqdarı nə qədər çox olarsa korroziya sürəti də buna müvafiq artır. Korroziyanın qarşısının alınması üçün müxtəlif növ inhibitorlar tətbiq olunur [10-12].

Dayanıqlı su-neft emulsiyasının deemulsasiyası üçün bir neçə üsul vardır: ultrasəsin təsiri ilə, elektroçökdürmə, sentrafuqalama və kimyəvi deemulsasiya. Kimyəvi deemulsasiya dayanıqlı su-neft emulsiyalarına kiçik konsentrasiyalarla səthi aktiv maddə xassəyə malik deemulqatırların əlavə edilməsidir. Səthi aktiv maddələr amfoter xüsusiyyətə malik, nano və ion quruluşlarla təsnif olunurlar. Səthi aktiv maddə zənciri iki hissədən ibarət olur, bunlardan biri polyar qrup, digəri isə qeyri-polyar qrup adlanır [13-16].

Bir çox tədqiqatçılar aşkar etmişdirlər ki, emulsiyaların deemulsasiyası neftlərin reologiyasına, o cümlədən özlülüyün azalaraq dəyişməsinə ciddi təsir göstərir. Deemulqatorun rolu fazalararası səthi gərilməni və ikiqat elektrik təbəqəsinin gücünü azaldaraq, neftin reologiyasını dəyişməklə dayanıqlı emulsiyanı dağıtmaqdan ibarətdir. Deemulqator fazalararası möhkəmliyi və səthi gərilməni müəyyən səviyyəyə endirdikdə suyun neftdən ayrılması asanlaşır [17-20].

İşin məqsədi- fərdi reagentlərin və yeni çoxfunksiyalı kompozisiyaların laboratoriya şəraitində mühafizə effektivliyinin tədqiqindən ibarətdir.

Tədqiqatın metodikası

Ragentlər və onların kompozisiyalarının deemulsasiya qabiliyyətini qiymətləndirmək üçün geniş istifadə olunan üsullardan biri də butulka test (staqtik çökmə) üsuludur. Bunun üçün reagentlər və ya kompozisiyalar əvvəlcə həlledicidə həll edilir, sonra isə tədqiq olunacaq qablaşdırımış neft nümunələrinə müxtəlif qatılıqlarda əlavə olunur. Reagentlər əlavə olunduqdan sonra 1 dəqiqə müddətində yaxşıca qarışdırılır, sonra isə su vannasında saxlanılır. Tədqiq olunan deemulqatorun deemulsasiya qabiliyyətindən asılı olaraq müxtəlif vaxtlarda suyun ayrılması qeydə alınır. Aşağıdakı tənliyi tətbiq etməklə demulsifikasiya göstəricisini aşağıdakı kimi hesablamaq olar:

$$\text{suyun ayrılması\%} = V / V_o \times 100$$

burada, V deemulqator əlavə edildikdən sonra ayrılmış suyun həcmini, Vo isə xam neft emulsiyasında ilkin suyun həcmini bildirir.

Laboratoriya sınaqları konkret texnoloji rejimlər olan separasiya temperaturu, susuzlaşdırma müddəti, hidrodinamiki xarakteristikalar, dozalama, məhsulların sulanması nəzərə alınması ilə modelləşdirilmişdir. Deemulqatorlar əmtəə formalarında dozalanmışdır və davamlı su-neft emulsiyalarının parçalanması 20, 60^0C temperaturlarda aparılmışdır. Əsas qiymətləndirmə kriteriyaları – neftlərin susuzlaşdırılma dinamikası ГОСТ 39-133-81-ə uyğun olaraq neftlərdə suyun qalıq miqdarı, suyun və çökdürücü-silindrlərin divarının keyfiyyəti hesab edilir.

Laboratoriya şəraitində təcrübələrin aparılması zamanı ND-12 (Azərbaycan istehsalı),Qossipol qətranı (Azərbaycan İstehsal), Disulfan-4411 (Rusiya istehsalı),Alkan (Azərbaycan İstehsal), BAF (Azərbaycan istehsalı) reagentlərindən və ND-12 və Alkan reagentlərinin 1:3 (şərti adı A), ND-12 və Qossipol qətranı reagentlərinin 1:1 (şərti adı B) və BAF,ND-12,Qossipol qətranı və Dissolvan-4411 reagentlərinin 1:1:1:1 (şərti adı C) nisbətində olan kompozisiyalarından istifadə edilmişdir.

Mövcud tədqiqatda xaricdə istehsal olunmuş reagentlər üçün sulaşma dərəcəsi müxtəlif olan Muradxanlı, Balaxanı, yatağı neftlərinin emulsiyalarının laboratoriya şəraitində susuzlaşdırılması üzrə təcrübələri aparılmışdır. Qeyd olunan neftlərin və lay sularının fiziki-kimyəvi xarakteristikaları uyğun olaraq cədvəl 1və 2-də göstərilmişdir.

Cədvəl 1. Xam neftlərin fiziki-kimyəvi xassələri

Göstəricilər	Muradxanlı	Balaxanı
Sıxlıq 20 ^{0}C, kq/m^3	950,1	925,2
Özlülük 20 ^{o}C, mP·san.	2160,3	2128,5
Suyun miqdarı, küt. %	42	31
Xlor duzların miqdarı, mg/l	535,6	380,4
Mexaniki qarışıqların midarı, küt. %	6,01	3,99
Qatranların miqdarı, küt. %	15,2-18,7	6,3-8,8
Asfaltenlərin miqdarı, küt. %	3,9-4,6	0,1-0,18
Parafinlərin miqdarı, küt. %	4,1-6,2	0,3-0,45
Donma temperaturu, ^{o}C	+10	+6

Cədvəl 2. Lay suyunun ümumi göstəriciləri

Göstəricilər	Muradxanlı	Balaxanı
Ümumi həllolmuş bərk maddələr mg/L	42,759	36,247
Sıxlıq	1009,23	1002,59
Duzluluq mg/L	37,885	33,246
pH (19 ^{0}C-də)	7,12	8,37
Na^+ mg/l	13,726	11,055
Ca^{2+} mg/l	748	720
Mg^{2+} mg/l	198	160
Cl^- mg/l	19,012	17,257
SO_4^{2-} mg/l	2650	2485
HCO_3^- mg/l	789	731

Bu neftlərin seçilməsi onunla əlaqədardır ki, mövcud yataqda neftveriminin yüksəldilməsi üçün kimyəvi reagentlərdən istifadə olunur, onların da istifadə olunması su-neft emulsiyalarının davamlılığının yüksəlməsinə gətirib çıxarır.Bundan başqa, tədqiqat üçün götürülmüş neft nümünələri həm parafin, həm də qatran-asfalten tipli stabilizatorlara malikdir və zamanla dayanıqlı su-neft emulsiya sistemlərini əmələ gətirir.

Sınaqdan keçirilən su-neft emulsiya nümunələri konusvari dibi olan xüsusi dərəcələnmiş 100 ml-lik çökdürücüyə yerləşdirilir, hər birinə şpris – mikro dozatorlar vasitəsilə əvvəlcədən hesablanmış miqdarda əmtəə formada deemulqatorlar əlavə edilir. Çökdürücülər kip bağlanır və neft fazası həcmində deemulqatorların bərabər paylanması, eyni zamanda yaxşı qarışması üçün 10 dəqiqə müddətində əl ilə çalxalanır.

Deemulqator dozalarının hesablanması deemulqatorun sıxlığı və neftlərin sıxlığı nəzərə alınmadan su-neft emulsiyalarının başlanğıc sulaşmasına əsasən həyata keçirilir.

Emulsiya çəkisində dozalanan deemulqator məhlulunun həcmi aşağıdakı formul üzrə hesablanır:

$$V_d = \frac{m(100 - W_{or})O_p}{1000}, (\text{mkl})$$

burada: m – emulsiyanın çəkisi, ml;

O_p – deemulqatorun verilmiş dozası, q/t;

W_{or} – emulsiyanın ilkin orta sulaşma dərəcəsidir, %.

Nəticələr və onların müzakirəsi

Tədqiqat prosesi zamanı Muradxanlı və Balaxanı xam neft nümunələrinin deemulsasiyası 2 saat müddətində 20ºC-də reagentsiz və reagentin təsiri ilə tədqiq edilmiş və alınan nəticələr cədvəl 2-də qeyd edilmişdir. Proses zamanı deemulqatorların 200, 400 və 600 q/t, Qossipol qətranıın 50,100 və 150 q/, BAF reagentinin 80,100,120 q/, A, B və C kompozisiyalarının isə 200,400,600 və 800 q/t qatılıqlarından istifadə edilmişdir.

Cədvəl.3.Xam neftlərin 20ºC temperaturda deemulsasiyası

Deemulqator	**Qatılıq, q/t**	**Ayrılan suyun % miqdarı**		**Sulaşma əmsalı, %**	
		Muradxanlı	Balaxanı	Muradxanlı	Balaxanı
Reagentsiz	0,00	28,8	20,7	13,2	10,3
Dissolvan-4411	200	29,6	23,2	12,4	7,8
	400	30,4	25,4	11,6	5,6
	600	**31,8**	**26,1**	**10,2**	**4,9**
ND-12	200	29,2	22,3	12,8	8,7
	400	30,1	23,8	11,9	7,2
	600	**31,5**	**25,9**	**10,5**	**5,1**
Alkan	200	29,0	22,5	13	8,5
	400	30,2	24,2	11,8	6,8
	600	**30,9**	**25,1**	**11,1**	**5,9**
Qossipol qətranı	50	28,9	20,9	13,1	10,1
	100	29,4	21,5	12,6	9,5
	150	**29,9**	**22,8**	**12,1**	**8,2**
BAF	80	29,2	20,9	12,8	10,1
	100	29,6	21,7	12,4	9,3
	120	**30,9**	**23,3**	**11,1**	7,7
A	200	29,6	22,2	12,4	8,8
	400	31,5	25,8	10,5	5,2
	600	32,8	26,4	9,2	4,6
	800	**33,4**	**27,6**	**8,6**	**3,4**
B	200	30,1	23,2	11,9	7,8
	400	32,5	24,7	9,5	6,3
	600	34,2	27,3	7,8	3,7
	800	**35,6**	**28,2**	**6,4**	**2,8**
C	200	29,8	24,2	12,2	6,8
	400	32,7	25,8	9,3	5,2
	600	34,1	26,3	7,9	4,7
	800	**35,3**	**27,9**	**6,7**	**3,1**

Şəkil. 1 və 2-də müvafiq olaraq 20ºC-də Muradxanlı və Balaxanı neftlərinin su-neft emulsiyalarına yeni kompozisiyaların təsirinin təcrübi nəticələri əks olunmuşdur.



Şəkil. 1. 20ºC-də Muradxanlı neftinə kompozisiyaların təsiri



Şəkil. 2. 20ºC-də Balaxanı neftinə kompozisiyaların təsiri

İstər fərdi reagentlər istərsə də kompozisiyalar müxtəlif qatılıq miqdarlarında müqayisə olunmuş, qeyd olunan qatılıqlardan yüksək qatılıqlarda isə intensiv təsir effekti müşahidə olunmamışdır. Cədvəl 3-dən göründüyü kimi fərdi reagentlərlə müqayisədə kompozisiyaların dayanıqlı su-neft emulsiyasına təsiri daha güclüdür. Ən yaxşı effektivlik A,B,C kompozisiyalarında müşahidə olunmuş və kompozisiyaların təsir effektivliyinin müqayisəli təhlilindən məlum olmuşdur ki, ən yüksək nəticə məhz B kompozisiyasında müşahidə olunur.

Temperaturun artması ilə dayanıqlı su-neft emulsiyasının dağılması daha da sürətlənir. Bu baxımdan fərdi reagentlərin və kompozisiyaların təsir effekti 60ºC-də tədqiq olunmuşdur, alınan nəticələr cədvəl 4-də qeyd olunmuşdur.

Cədvəl. 4. Xam neftlərin 60ºC temperaturda deemulsasiyası

Deemulqator	**Qaılıq, q/t**	**Ayrılan suyun % miqdarı**		**Sulaşma əmsalı, %**	
		Muradxanlı	Balaxanı	Muradxalı	Balaxanı
Reagentsiz	0	34,1	22,7	7,9	8,3
Dissolvan-4411	200	35,9	26,2	6,1	4,8
	400	39,8	27,4	2,2	3,6
	600	**41,1**	**28,1**	**0,9**	**2,9**
ND-12	200	34,6	25,3	7,4	5,7
	400	38,1	26,8	3,9	4,2
	600	**40,7**	**28,9**	**1,3**	**2,1**
Alkan	200	33,1	25,5	8,9	5,5
	400	38,7	26,2	3,3	4,8
	600	**40,3**	**27,1**	**1,7**	**3,9**
Qossipol qətranı	50	35,6	23,6	6,4	7,4
	100	36,3	24,5	5,7	6,5
	150	**37,8**	**25,8**	**4,2**	**5,2**
BAF	80	35,2	22,9	9,8	8,1
	100	36,7	24,7	5,3	6,3
	120	**38,2**	**25,3**	**3,8**	**5,7**
A	200	35,7	24,2	6,3	6,8
	400	36,9	26,8	5,1	4,2
	600	37,4	29,4	4,6	1,6
	800	**41,5**	**30,6**	**0,5**	**0,4**
B	200	35,7	24,5	6,3	6,5
	400	37,3	25,1	4,7	5,9
	600	40,2	28,7	1,8	2,3
	800	**41,85**	**30,9**	**0,15**	**0,1**
C	200	35,4	24,7	6,6	6,3
	400	36,6	26,9	5,4	4,1
	600	39,8	29,2	2,2	1,8
	800	**41,7**	**30,8**	**0,3**	**0,2**

Cədvəl 4-dən göründüyü kimi temperaturun artmasi ilə istər reagentsiz, istər fərdi, istərsə də kompozisiya halında olan reagentlərin tətbiqi zamanı ayrılan suyun faiz miqdarı nəzərə çarpacaq dərəcədə artır. 60ºC temperaturda aparılan tədqiqatlaın nəticələri bir daha B kompozisiyasının daha yüksək deemulsaedici təsirə malik olduğunu göstərmişdir.

Şəkil 3 və 4-də 60ºC-də kompozisiyaların təsiri ilə aparılan təcrübələrin nəticələri göstərilmişdir.



Qrafik 3. 60ºC –də Muradxanlı neftinə kompozisiyaların təsiri



Qrafik 4. 60ºC –də Balaxanı neftinə kompozisiyaların təsiri

Su-neft dispers sisteminin yaratdığı təsirlərdən də biri korroziya yaratma qabiliyyəti olduğunu nəzərə alaraq yeni çoxfunksiyalı kompozisiyaların təsiri korroziya sürətinə təsiri tədqiq edilmiş və alınmış nəticələr cədvəl 5və 6-da verilmişdir.

Cədvəl 5. Kompozisiyaların Muradxanlı neftinidə korroziya sürətinə təsiri

Kompozisiya	Qatılıq, q/t	Korroziyanın sürəti, q/m²·saat		Mühafizə effekti, % (z)	Ləngimə əmsalı, % (γ)
		Reagentsiz	Reagentlə		
A	200	5,1	0,9897	80,5	5,15
	400	5,1	0,7245	85,7	7,03
	600	5,1	0,5723	88,7	8,91
	800	**5,1**	**0,2591**	**94,9**	**19,61**
B	200	5,1	0,9258	81,8	5,50
	400	5,1	0,5193	89,8	9,82
	600	5,1	0,2795	94,5	18,24
	800	**5,1**	**0,0939**	**98,1**	**54,31**
C	200	5,1	0,9712	80,9	5,25
	400	5,1	0,6295	87,6	8,10
	600	5,1	0,3795	92,5	13,43
	800	**5,1**	**0,1878**	**96,3**	**27,15**

Cədvəl 6. Kompozisiyaların Balaxanı neftinində korroziya sürətinə təsiri.

Kompozisiya	Qatılıq, q/t	Korroziyanın sürəti, q/m²·saat		Mühafizə effekti,% (z)	Ləngimə əmsalı, % (γ)
		Reagentsiz	Reagentlə		
A	200	4,3	0,9712	77,4	4,42
	400	4,3	0,7187	83,2	5,98
	600	4,3	0,5433	87,3	7,9
	800	**4,3**	**0,2498**	**94,1**	**17,21**
B	200	4,3	0,8945	79,1	4,80
	400	4,3	0,4928	88,5	8,72
	600	4,3	0,2577	94,0	16,68
	800	**4,3**	**0,0925**	**97,8**	**46,48**
C	200	4,3	0,9736	77,3	4,41
	400	4,3	0,6247	85,4	6,88
	600	4,3	0,3783	91,2	11,36
	800	**4,3**	**0,1821**	**95,7**	**23,61**

Cədvəl 5 və 6-nın nəticələrinə nəzər saldığımız zaman müşahidə edirik ki, reagentsiz və kompozisiyaların tətbiqindən sonra korroziya sürətinin qiymətləri arasında fərq olduqca böyükdür. Deemulsasiyanın aparılması zamanı olan qatılıq nisbətləri korroziya sürətində də tədqiq olunmuş, kompozisiyaların təsir effetləri arasında müqayisələr müşahidə olunmuşdur. Deemulsasiya baxımından effektivlik göstərən B kompozisiyası suyu neftdən daha yaxı ayırdığı kimi korroziya sürətini digər reagentlərlə müqayisədə də minimuma endirib. Yenə ən yüksək effektivlik kompozisiyanın 800 q/t miqdarında müşahidə olunub.

Su-neft emulsiyasının dayanıqlığına təsir göstərən ən güclü faktorladan biri də neftin tərkibində mexaniki qarışıqlar, asfalten, qatran və parafinlərdir ki, onar da dispers fazalar arası səthi gərilmənin çox olmasına səbəb olur. Eyni zamanda sulaşmış və sudan təmizlənən neftin donma temperaturları müxtəliflik təşkil edir. Bu baxımdan da reagentsiz və kompozisiyaların təsiri ilə neftin sudan təmizlənməsi üçün apardığımız təcrübənin səthi gərilmə və donma temperaturuna təsiri də tədqiq olunmuşdur. Aldığımız nəticələrin qiymətləri cədvəl 7-də qeyd olunmuşdur.

Cədvəl 7. Kompozisiyaların neft nümunələrinin donma temperaturuna və səthi gərilməsinə təsiri.

Kompozisiya	Qatılıq, q/t	Donma temperaturu, ºC		Donma temperaturuna təsir effekti, %		Səthi gərilmə, N/m²		Səthi gəriilməyə təsir effekti, %	
		Murad-xanlı	Balaxanı	Murad-xanlı	Balaxanı	Murad-xanlı	Balaxanı	Murad xanlı	Balaxanı
Reagentsiz	0	+10	+6	0,00	0,00	28,5	25,4	0,00	0,00
A	200	+9,7	+4,8	3	20,0	23,6	22,8	17,1	10,2
	400	+9,3	+3,1	7	48,3	21,1	20,7	25,9	18,5
	600	+9,0	+2,7	10	55,0	18,8	19,2	34,0	24,4
	800	**+8,5**	**+1,0**	**15**	**83,3**	**16,9**	**15,3**	**40,7**	**39,7**
B	200	+9,8	+4,1	2	31,6	22,7	21,6	20,3	14,9
	400	+9,6	+2,7	4	55,0	18,5	17,9	35,0	29,5
	600	+8,8	+1,3	12	78,3	16,6	15,5	41,7	38,9
	800	**+8,4**	**+0,5**	**16**	**91,6**	**13,2**	**12,8**	**53,6**	**49,6**
C	200	+9,5	+3,5	5	41,6	22,4	20,7	21,4	18,5
	400	+8,8	+1,4	12	76,6	17,8	16,9	37,5	33,4
	600	+8,1	-2,6	19	143,3	15,3	13,8	46,3	45,6
	800	**+8,0**	**-3,3**	**20**	**155**	**12,9**	**10,2**	**54,7**	**59,8**

Cədvəl 7-nin nəticələrindən göründüyü kimi həm Muradxanlı, həm də Balaxanı neftlərinin emulsiyaları dayanıqlı dispers sistemlər olduğundan səthi gərilmənin qiyməti yüksəkdir. Kompozisiyaların tətbiqindən sonra hər iki neft nümunəsində səthi gərilmənin qiyməti getdikcə azalaraq minimuma enmişdir. Donma temperaturlarının reagentsiz qiymətləri arasında da tendensiya müşahidə olunur. Kompozisiyaların təsiri ilə donma temperaturunda da azalma müşahidə olunsa da, Muradxanlı neftinə təsir az olmuşdur. Bunun səbəbi isə Muradxanlı neftində qatran, asfalten və parafin birləşmələrinin miqdarının çox olması və bu neftin daha ağır neft olması ilə əsaslandırılır. Bu baxımdan Muradxanlı neftinin donma temperaturu minimum +10ºC-dən +8ºC-ə qədər endiyi halda Balaxanı neftinin donma temperaturu +6ºC-dən -3,3ºC-ə qədər enmişdir. A,B və C kompozisiyaları arasında donma temperaturuna ən çox təsir göstərən C kompozisiyası olmuşdur. Eyni zamanda komponentlər arasında olan səthi gərilməyə də C kompozisiyasının təsiri A və B kompozisiyalarının təsirindən daha çox olmuşdur.

Nəticə

1.İlk dəfə olaraq müqayisəli təhlil aparmaqla daha effektli reagentlərin seçilməsi baxımından Muradxanlı və Balaxanı yataqların dayanıqlı su-neft emulsiyalı neft nümunələrinə müxtəlif tərkibli kompozisiyaların təsiri öyrənilmişdir. Ən yüksək effek 60ºC temperaturda Qossipol qətranı və ND-12 reagentləri əsasında hazırlanan və şərti adı B olan kompozisiyanın 800q/t qatılığında müşahidə edilmişdir. Bu zaman qalıq suyun miqdarı uyğun olaraq 0.15 və 0.1% təşkil etmişdir.

2. A, B və C kompozisiyaların 800 q/t miqdarının Muradxanlı və Balaxanı su-neft emulsiyasında elektrokimyəvi korroziya sürətinə təsirinin tədqiqi zamanı ən yüksək təsir effekti məhz yenə B kompozisiyasında müşahidə edilmişdir. Belə ki, B kompozisiyanın Muradxanlı neft nümunəsində mühafizə effekti 98,1%, Balaxanı neft nümunəsində isə 97,8% olmuşdur.

3 Müəyyən edilmişdir ki, neft nümünələrin səthi gərilməsinin və donma temperaturunun azalmasına daha yüksək təsiri C kompozisiyası göstərir. C kompozisiyası 800 q/t optimal qatılığında Muradxanlı neft nümunəsinin donma temperaturunu +10ºC-dən +8ºC-yə, Balaxanı neft nümunəsinin donma temperaturunu isə +6ºC-dən -3,3ºC kimi, uyğun olaraq səthi gərilməni isə 28,5N/m²-dən 12,9N/m²-a və 25,4N/m² -dən 10,2N/m² -ə qədər azaldır.

ƏDƏBİYYAT SİYAHISI

1. Ryabov V. G., Starkova N. N., Tarkhov L. G., Kudinov A.v. Oleum et gas processus: artem. Perm. Universitas publica technica, 2008. 103 p.
2. Khutoryanski F. M., Galiev R. G., Kapustin V. M. Altae siccitatis et desalinationis olei in refineries. Moderni gradus scientificus et technicus processus / / Bulletin XVII MENDELEEV congressus generalis Et Chemiae Applicata. M., 2007. v. 3. pp. 461
3. Schramm L. L. in emulsione fundamentalium et applicationum in petrolei industriae. Washington Dc: Societas Chemica Americana, anno 1992.
4. Matiev K. I., Agazade A. AD, Keldibayeva S. s. Remotio bituminis resinae et paraffin ex variis campis deposita./ SOCRATES appellatur. 2016, № 4, pp. 64, 68.
5. Bakhtizin RN, Karimov R. M., Mastobayev B. N. Effectus partium macromolecularium in proprietatibus rheologicis secundum structuram coetus et compositionem olei fracti / / Socar iudicio. 2016, № 1, pp. 42-50.
6. Kokal S. In petroleum engineering adnotationes: generalis ipsum. Richardson, TX: Societas Petrolei Engineering, 2006.
7. Mingazov R. D. compositiones ad dispersionem emulsionum olei aquae secundum oligo-urethanes et surfactantes ionicas. Abstractum dissertationis pro gradu scientiarum technicarum candidati. Kazan: Kazan National Investigationis Technologicae Universitatis, 2012.
8. Matiev K. I., Agazde A. R., Alsafarov M. E., Akberova A. F. / / SOCAR acta. 2018, № 1, 075-082, pp. 75-82.
9. Persae M. N., Zagorodnev S. M., Kleimenov V. F., Samakaev R.Kh., Lujetski V. P. experientia in usu reagentis-demulsifier "DIN" apud SAVELIEVSKAYA UPSV NGDU "Buzulukneft"// Geologiae et operationis olei et gasi et olei agrorum regionis Orenburg-Orenburg, Orenburg libri editae domus, 1999, pp. 259-262
10. Vaganov R. K. Machinationem inhibendi ius praesidio facilities producendo oleum puteos / Vaganov R. K. / / corrosio: materiae, praesidium - 2007. №10. pp. 9-13.
11. Kuznetsov Y. I., Vaganov R. K., Getmanski M. D. Facultates corrosionis inhibitionis facilitatum pipelinearum in industria olei et gasi/ / Corrosionis: materiae, tutelae-2007. №3. pp. 9-13.
12. Gafarov N. A., Goncharov A. A., V. M. Kushnarenko, Shchipunov D. N., Chirkov Y. A. Defectus analysis facultatum Et fistularum orenburg olei et campi gasi condensati. // Praesidium metallorum: - 2003. -V. 39. - №3. pp. 328-331.
13. Mukhamadiyev A. A., Notov S. v. eventus gubernator probat demulsifier "alkioks-516" AD facilities DE OJSC "Samotlorneftegaz" //acta oleum industria, 2008, №5, pp. 74, 75.
14. Nebogina N. A., Prozorova I. V., Yudina N. V. Effectus aquae contentae in oleo in formatione et proprietatibus rheologicis olei emulsionum / / acta olei industriae, 2008, № 12, pp. 90-92.
15. Lutfullin M. F., Mukhamadiyev A. A., Agniyev S. V., yunusov A. I. eventus usum demulsifier Declaves-1251 ad "Maloichskoye" agro OAO Severnoyeneftegaz TNK-BP // Acta Oleum industria, 2005, №5, pp. 94-96
16. Sahabutdinov R. Z., Bubaidulin.F. R., Khamidullin. R. F. Methodi probandi demulsifiers ad praeparationem campi olei: instructiones emendatiores. Kazan. Kazan Rei Publicae Universitatis Technologicae, 2009. 35p.
17. Persaev M. N., Zagorodnev S. M., Kleimenov V. F., Samakaev R. K., Luzhetski V. P. Experientia in usu reagentis-demulsifier "DIN" apud "SAVELIEVSKAYA" UPSV NGDU "Buzulukneft"// Geologiae et operationis olei et agrorum gasi orenburg regionis. Orenburg, Orenburg editae domus, 1999, pp. 259-262
18. Mukhamadiyev A. A., Notov S. v. eventus gubernator probat demulsifier "alkioks-516" AD facilities DE OJSC "Samotlorneftegaz" // acta oleum industria, 2008, №5, pp. 74, 75.
19. Nebogina N. A., Prozorova I. V., Yudina N. V. Effectus aquae contentae in oleo in formatione et proprietatibus rheologicis olei emulsionum / / Acta Olei Industriae, 2008, № 12, pp. 90-92.
20. Lutfullin M. F., Mukhamadiyev A. A., Agniyev S. V., Yunusov A. I. Eventus applicationis demulsifier" Declave S-1251 "apud" Maloichskoye "campum OAO" Severnoyeneftegaz " Tnk-BP// Acta Olei Industry, 2005, №5, pp. 94-96

2023. Volume 7, Number 2 ***Pages 143-150***

UDK: 615.246.2

PACS: 36.20.Kd

ENTEROSORBENTLƏR: MÜASİR KONSEPSİYA VƏ TƏTBİQİ

Seyidova Çiçək Mirməhəmməd, Fətullayeva Sevda Surxay,

Zeynalov Nizami Allahverdi

Elm və Təhsil Nazirliyi akademik M.Nağıyev adına

Kataliz və Qeyri-üzvi Kimya İnstitutu

chcicekseyidova@gmail.com

Bakı, Azərbaycan

XÜLASƏ

Hazırda ətraf mühitin toksiki metallarla çirklənməsi insan sağlamlığı üçün təhlükə yaradan çox aktual problemdir. Çoxlu toksiki metallar həyati vacib orqanlarda (məsələn, mədə-bağırsaq traktı, qaraciyər, böyrəklər və s.) toplanır və orqanizmin biokimyəvi proseslərinə mənfi təsir göstərir. İnsan orqanizmin intoksikasiyası çox ciddi bir problemdir və buna görə də bu sahədə yeni etibarlı dərmanların yaradılması hər zaman önəmli mövzu hesab olunur. Təklif olunan enterosorbsiya toksikozlarla əlaqəli patoloji vəziyyətlərin korreksiyasında istifadə olunan unikal xassələrə malik olan enterosorbentlər vasitəsilə orqanizmi təmizləməyin sadə və effektiv üsuldur. Bu məqalədə enterosorbentlərin klinik praktikada tətbiqinə, xüsusən də, toksiki metalların insan orqanizmindən çıxarılmasına həsr olunmuş son illərin elmi tədqiqatları nəzərdən keçirilir. Enterosorbentlərin müasir təsnifatı da təqdim olunur.

Açar sözlər: enterosorbent, detoksikasiya, ağır metallar

ЭНТЕРОСОРБЕНТЫ: СОВРЕМЕННАЯ КОНЦЕПЦИЯ И ПРИМЕНЕНИЕ

РЕЗЮМЕ

В настоящее время загрязнение окружающей среды токсичными металлами является весьма актуальной проблемой, представляющей угрозу для здоровья человека. Многие токсичные металлы накапливаются в жизненно важных органах (например, желудочно-кишечном тракте, печени, почках и др.) и оказывают негативное влияние на биохимические процессы организма. Интоксикация организма человека — очень серьезная проблема, и поэтому создание новых надежных препаратов в этой области всегда считалось актуальной темой. Предлагаемый метод энтеросорбции является простым и эффективным методом очищения организма с помощью энтеросорбентов с уникальными свойствами, используемых при коррекции патологических состояний, связанных с токсикозом. В данной статье представлен обзор научных исследований последних лет, посвященных применению энтеросорбентов в клинической практике, в частности, выведению токсичных металлов из организма человека. Также представлена современная классификация энтеросорбентов.

Ключевые слова: энтеросорбент, дезинтоксикация, тяжелые металлы.

ENTEROSORBENTS: MODERN CONCEPT AND APPLICATION

ABSTRACT

At present, environmental pollution with toxic metals is a very urgent problem that poses a threat to human health. Many toxic metals accumulate in vital organs (for example, gastrointestinal tract, liver, kidneys, etc.) and have a negative effect on the biochemical processes of the body. Intoxication of the human body is a very serious problem, and therefore the creation of new reliable drugs in this field is always considered an important topic. The proposed enterosorption is a simple and effective method of cleansing the body using enterosorbents with unique properties, which are used in the correction of pathological conditions associated with toxicosis. In this article, the scientific researches of recent years devoted to the application of enterosorbents in clinical practice, in particular, to the removal of toxic metals from the human body, are reviewed. The modern classification of enterosorbents is also presented.

Key words: enterosorbent, detoxification, heavy metals

Giriş

Təbiətin sürətlə çirklənməsi xəstəliklərin sayının artmasına səbəb olur və patoloji proseslərə gətirib çıxarır. İndiki dövrdə dünyanın ekoloji vəziyyəti planetdəki bütün canlı orqanizmlərinin həyatına birbaşa təsir edir. Buna görə də, ətraf mühitin mühafizəsi məsələsi hər gün daha çox aktuallaşır və bu cür ekoloji problemlərin həlli üçün təxirəsalınmaz tədbirlər tələb olunur.

Belə ki, bu cür ekoloji problemlərin insana birbaşa təsiri nəticəsində insan orqanizminin zəhərlənməsi müasir tibbin əsas problemlərinə aiddir. Orqanizmin detoksiyasiyasının 2 üsulu vardır. Bunlardan qeyri-invaziv üsula aid olan enterosorbsiya həm fövqəladə hallarda, həm də orqanizmin planlı detoksikasiyası zamanı müxtəlif təbiətli toksinlərin xaric edilməsi üçün çox perspektivli bir üsuldur (sxem1). Enterosorbsiya enterosorbentin mədə-bağırsaq traktında hərəkətini təsvir etmək üçün istifadə olunur, bu müddət ərzində müəyyən molekulları adsorbsiya edə bilir, lakin özü nə bağırsaqdan sistem dövriyyəsinə sorulur, nə də metabolizə olunur və beləliklə, dəyişməz olaraq xaric olur. Enterosorbentlər aktivləşdirilmiş karbonlar və ya kömürlər, qeyri-üzvi minerallar, polimer və silikon tərkibli qatranlardan ibarət materiallar qrupudur. Onlar toksik-allergik reaksiyaların qarşısını almaq, ifrazat və detoksikasiya orqanlarına metabolik yükü azaltmaq üçün istifadə olunur [1].

Enterosorbsiya üsulu efferent terapiyanın tərkib hissəsidir. Toksiki birləşmələrin dializ, elektrokimyəvi oksidləşmə və sorbsiya yolu ilə orqanizmdən çıxarılmasına əsaslanan müalicə üsulları efferent adlanır [2].



Sxem 1. Detoksikasiya üsulları

İnsan orqanizmindən zəhərli metalların xaric edilməsi məqsədi ilə poli-N-vinilpirolidonun calaq sopolimerlərinin sintezi, onların əsasında enterosorbentlərin hazırlanması və tətbiqi ilə bağlı apardığımız elmi-tədqiqat işləri aktual və praktikdir. Aldığımız nəticələr gələcək nəşrlərdə öz əksini tapacaq.

Bu məqalədə enterosorbentlərin müxtəlif patologiyaların xəstəliklərinin müalicəsi üçün klinik praktikada istifadəsi və insan orqanizmindən toksiki metalların çıxarılması üçün tətbiqi haqqında məlumatlar təqdim olunur.

Enterosorbentlərin xüsusiyyətləri

Günümüzdə enterosorbsiya tibbi praktikada çox vacibdir. Beləki, endo- və ekzotoksikozlarla əlaqəli patoloji vəziyyətlərin korreksiyasında istifadə olunan unikal xassələrə malik olan sorbentlər vasitəsilə orqanizmi təmizləməyin sadə və effektiv üsuldur [3].

Enterosorbsiya toksik-allergik reaksiyaların qarşısını alır, ekzogen intoksikasiya profilaktikasını həyata keçirir, ifrazat və defekasiya orqanlarına metabolik yükü azaldır, zəhərlənmələri aradan qaldırır, təbii müdafiə sistemlərinin dərmansız stimullaşdırılmasını təmin edir və daxili orqanların fəaliyyətini yaxşılaşdırır [4,5]. Mükəmməl enterosorbentlər geniş aktiv səth sahəsinə görə yüksək effektivliyə, toksinlərə münasibətdə yüksək sorbsiya qabiliyyətinə, istifadədə sübut edilmiş təhlükəsizliyə malik olmalıdır. Mükəmməl enterosorbentlərin xüsusiyyətləri aşağıdakı sxemdə göstərilmişdir (sxem2).

Sxem 2. Enterosorbentlərin xüsusiyyətləri

Enterosorbentlərin nəsilləri

Enterosorbentləri xarakterizə etmək üçün sorbentin aktiv səth sahəsi anlayışı təqdim edilmişdir [6]. Müasir konsepsiyalara görə, enterosorbent seçərkən sorbent məsaməliliyinin strukturunu nəzərə almaq lazımdır. Bir qram maddə üçün aktiv udma səthinin ölçüsünə uyğun olaraq, enterosorbentlər bir neçə nəsilə bölünür (sxem3).

Sxem 3. Enterosorbentlərin nəsilləri

Beləki, 1 qram maddə üçün aktiv udma səthinin sahəsi kömür sorbentləri üçün 1.5-2 m^2/q, polimer sorbentlər üçün 100 m^2/q-a qədər, silikon sorbentlər üçün 180-300 m^2/q, ən yüksək dispersli silikon dioksid üçün isə 400 m^2/q, günlük doza isə uyğun olaraq 20-30, 9-12, 4-5 və 2-4 qramdır [7].

Enterosorbentlərin tibbdə istifadəsi

Hal-hazırda tibbdə kimyəvi quruluşu və təbiəti, seçiciliyi və sorbsiya mexanizmləri ilə fərqlənən çox sayda enterosorbentlərdən istifadə olunur. Enterosorbsiya kompleks müalicə üçün effektiv əlavədir, çünki o, sistemli iltihab reaksiya ocağını söndürür, immun sistemini bərpa etməyə kömək edir, təbii müdafiə sistemlərinin dərmansız stimullaşdırılmasını təmin edir və daxili orqanların fəaliyyətini yaxşılaşdırır. Enterosorbentlər həmçinin bağırsaq infeksiyaları üçün mono- və kombinasiyalı terapiyada da uğurla istifadə olunur [8]. Enterosorbentlərdən qastroenterologiya, toksikologiya, infeksion xəstəliklər, allerqologiya,

dermatologiya, cərrahiyyə, onkologiya, narkologiya, hepatologiya, nefrologiya sahələrində geniş istifadə olunur [9].

Qeyd etmək lazımdır ki, enterosorbentləri digər dərman preparatları ilə eyni zamanda qəbul etmək olmaz, belə ki, onların dozaları arasındakı interval ən azı 1,5-2 saat olmalıdır. Müəyyən edilmişdir ki, bir sıra sorbentlərin qəbulu zamanı mineral duzların, fermentlərin və digər faydalı maddələrin sorbsiyası da mümkündür. Aparılan tədqiqatlar göstərir ki, enterosorbentlərin yüksək klinik təsirinin təzahürü onların təyin edilməsinin vaxtından asılıdır.

Dizenteriya, salmonellyoz, enterovirus infeksiyaları kimi müxtəlif yoluxucu xəstəliklərin, eləcə də qeyri-infeksion xarakterli kəskin xəstəliklərin müalicəsində enterosorbentlərin istifadəsi zəruridir. Ədəbiyyat məlumatlarından görmək olar ki, enterosorbsiya qaraciyər xəstəliklərinin (hepatit, qaraciyər sirrozu) müalicəsində çox istifadə olunur [10-13].

Enterosorbentlərin istifadəsi müxtəlif etiologiyalı mədə-bağırsaq xəstəliklərinin qarşısının alınması və müalicəsində perspektiv istiqamətlərdən biridir. Sorbentlərin istifadəsi digər tibbi terapiya növlərinin, o cümlədən antibiotik və hormon terapiyası da daxil olmaqla digər dərman müalicəsinin intensivliyini istisna etməyə və ya azaltmağa imkan verir [14].

Allergik xəstəliklərin müalicəsində enterosorbentlərin istifadəsi fonunda ödəm və dəri səpkilərinin, qaşınmalalarının aktivliyinin azalması qeyd olunur. Allergik reaksiyaların yaranmasında təkcə qida allergiyasının deyil, həm də digər patoloji proseslərin əmələ gəlməsinə səbəb olan bağırsaq disbakteriozunun inkişafı mühüm rol oynayır [15]. Qastroenterologiya və detoksikasiya terapiyası sahələrində yeni dərman preparatlarının hazırlanması üçün hidrogel şəklində karboksillənmiş mikrokristallik sellüloza əsasında enterosorbentlərin matrisa kimi istifadəsinin perspektiv xarakteri göstərilmişdir [16]. Müəyyən edilmişdir ki, enterosorbent qəbul etdikdən sonra C-reaktiv zülal səviyyəsinin aşağı düşməsi və mikrosirkulyasiyada nəzərəçarpacaq yaxşılaşma müşahidə olunur ki, bu da xroniki ürək çatışmazlığı üçün xarakterik olan iltihab prosesinin azalmasını göstərir [17].

Toksiki metallar və insan orqanizmi

Ətraf mühitdə müxtəlif sənaye və təsərrüfat məqsədləri üçün istifadə edilən metalların olması ətraf mühitin çirklənməsinin əsas səbəbidir. Metallarla çirklənmə onların toksikliyi və bioloji parçalanmaması və ətraf mühitdə, eləcə də canlı orqanizmlərdə toplanma qabiliyyətinə görə dünyada ciddi problemdir[18]. Əslində mis, kobalt, dəmir, nikel, maqnezium, molibden, xrom, selen, manqan və sink kimi bəzi ağır metallar orqanizmdə müxtəlif fizioloji və biokimyəvi fəaliyyətlər üçün vacib olan funksional rollara malikdir. Ancaq yüksək dozada bədənə zərər verə bilərlər [19,20]. Ağır metallar yüksək atom çəkisi və sıxlığı sudan ən azı 5 dəfə böyük olan təbii elementlərdir [21]. Onların toksikliyi götürülmüş dozadan, kimyəvi maddələrin növlərindən, məruz qalma yolundan, eləcə də məruz qalmış şəxslərin yaşı, cinsi, genetikası və qidalanma vəziyyəti daxil olmaqla bir neçə faktordan asılıdır.

Ağır metallar müxtəlif ekoloji matrislərdə iz qatılıqlarında (10 ppm-dən az) mövcud olduqlarına görə də iz elementləri hesab olunurlar [22]. İz mineralları kimi də tanınan iz elementləri, təbii olaraq torpaqda, bitkilərdə və canlılar aləmində kiçik qatılıqlarda yaranan kimyəvi komponentlərdir. Onlar düzgün hüceyrə mübadiləsi, effektiv immun funksiyası və insanların sağlam çoxalması kimi optimal inkişaf və metabolik fəaliyyət üçün lazımdır.

Onların canlı orqanizmlərdə rolu və homeostazı müxtəlifdir. Mikroelementlər faydalı və/yaxud zəhərlidirlər. Minerallar tipik insan pəhrizinin yalnız 5%-ni təşkil edir, lakin normal sağlamlıq və funksiya üçün vacibdir [23]. Bildirilmişdir ki, kobalt (Co), mis (Cu), xrom (Cr), dəmir (Fe), maqnezium (Mg), manqan (Mn), molibden (Mo), nikel (Ni), selen (Se) və sink (Zn) müxtəlif biokimyəvi və fizioloji funksiyalar üçün lazım olan əsas qidalardır. Bu mikroelementlərin qeyri-kafi tədarükü müxtəlif xəstəliklər və ya sindromlar ilə nəticələnir [24].

Ağır metalların səbəb olduğu toksiklik və kanserogenlik bir çox mexaniki aspektləri əhatə edir[25], bəziləri bariz şəkildə aydınlaşdırılmamış və ya başa düşülməmişdir. Bununla belə, hər bir metalın özünəməxsus xüsusiyyətlərinə və onun spesifik toksikoloji təsir mexanizmlərinə uyğun fiziki-kimyəvi xassələrə malik olduğu məlumdur [26]. Metalların toksikliyi onların hüceyrə membranlarını zədələmək, bioloji baryerlərə nüfuz etmək və keçiriciliyini artırmaq, zülallarla birləşmək, bir çox ferment sistemini bloklamaq qabiliyyəti ilə bağlıdır ki, bu da son nəticədə toksiki dəyişikliklərə gətirib çıxarır və orqanizmdə pozuntulara səbəb olur [27]. Onlar, insan orqanizmində toplanma qabiliyyətinə görə nisbətən kiçik qatılıqlarda belə toksiki təsir göstərir, müxtəlif patologiyalara səbəb olur. Metalların müxtəlif toksiklik dərəcəsi metal ionlarının canlı strukturlarla qarşılıqlı təsiri zamanı ödəm və dəri səpkiləri kimyəvi proseslərin xüsusiyyətləri ilə müəyyən edilir. İstənilən metal orqanizmdə qan dövranına tez daxil olur, daha sonra isə daxili orqanlara keçir.

Ədəbiyyat məlumatları göstərir ki, metalların toksikliyi onların elektron quruluşundan asılıdır və enerji səviyyələrinin elektronlarla natamam doldurulması yüksək toksiki elementlərin xarakterik xüsusiyyətidir. Belə ki, toksiki təsir üçün metalların valentliyi vacib faktordur [28]. Metalların toksiklik dərəcələrinə görə təsnifatı aşağıdaki sxemdə göstərilmişdir (sxem4).



Sxem 4. Metalların orqanizmin həyati fəaliyyətinə təsiri

Bu toksiki metalların ionları kəskin və xroniki zəhərlənmələrə səbəb olur [29]. Birləşmələrin toksikliyinə təsir edən bir neçə amil var: doza; birləşmələrin xassələri; bioloji sistemin birləşməni udmaq və lazımi orqana daşıması; birləşmənin daha çox və ya daha az toksiki formalara çevrilməsi; birləşmənin makromolekullarla qarşılıqlı əlaqə qabiliyyəti (məsələn, ağır metalların bir çox fermentləri bloklaması) [30].

Ağır metalların orqanizmə toksiki təsiri onların amin turşuları, peptidlər və zülallarla birləşməsilə həyata keçirilir. Belə ki, bəzi toksiki metalların ionları polipeptid zəncirinin amin turşusu qalıqlarında terminal amin, karboksil qruplarının və yan funksional qrupların (–SH, –NH_2, –OH, –COOH) iştirakı ilə xelatlar əmələ gətirir. Metal ionlarının sisteminin sulfhidril qrupları ilə qarşılıqlı təsiri müşahidə olunur ki, bu da zülalın strukturunun və fermentativ funksiyasının pozulmasına gətirib çıxarır [31].

Toksiki metalların çıxarılması üçün istifadə olunan enterosorbentlər

Enterosorbentlərin terapevtik təsir mexanizmləri hələ də müzakirə mövzusudur. Orqanizmin sorbsiya detoksikasiyası metodu zəhərli maddələrin və metabolitlərin sistemli qatılıqlarının azaldılmasının elmi cəhətdən sübut olunmuş mexanizmlərinə əsaslanır. Toksiki metalların və radionuklidlərin çıxarılması üçün həm təbii, həm də sintetik mənşəli çoxlu sayda qeyri-spesifik və spesifik enterosorbentlər təklif edilmişdir [32] (sxem5).



Sxem 5. Toksiki metalların çıxarılması üçün təklif olunan enterosorbentlər

Nəticə

Bu araşdırmada təqdim olunan məlumatlar göstərir ki, müasir enterosorbentlərlə terapiya üsulu demək olar ki, kəskin və xroniki xəstəliklərdə xüsusi əhəmiyyət kəsb edir. Aparılmış tədqiqatlar əsasında müəyyən edilmişdir ki, efferent terapiya sahəsində tədqiqatlar geniş klinik praktikada enterosorbentlərin daha effektiv istifadəsinə kömək edir. Enterosorbentlərin müxtəlif təbiətli bioloji aktiv birləşmələrin immobilizasiyası üçün daşıyıcı kimi istifadəsi, yeni xüsusiyyətlərə sahib olan və uzunmüddətli təsirə malik dərmanlar istehsal etməyə, eləcə də onların istifadəsi üçün yeni imkanlar yaratmağa yol açır.

Nəticədə, ədəbiyyat məlumatlarından göründüyü kimi, enterosorbsiya həm fövqəladə hallarda, həm də orqanizmin planlı detoksifikasiyası zamanı müxtəlif təbiətli toksinlərin, o cümlədən toksiki metalların xaric edilməsi üçün çox perspektivli bir üsuldur.

ƏDƏBİYYAT SIYAHISI

1. O.V. Savchenko Removal of heavy metals from the body using an enterosorbent based on calcium alginate Human Ecol. [in Russian]., 8 (2014), pp. 20-24
2. Iu M Lopukhin, I P Andrianova, Efferent treatment methods, Antibiot Med Biotekhnol . 1986 Feb;31(2):128-33
3. Marroquín-Cardona, A., Deng, Y., Garcia-Mazcorro, J. F., Johnson, N. M., Mitchell, N. J., Tang, L., … Phillips, T. D. (2011). *Characterization and safety of uniform particle size NovaSil clay as a potential aflatoxin enterosorbent. Applied Clay Science, 54(3-4), 248–257.* doi:10.1016/j.clay.2011.09.009J.-S. Wang, T.D. Phillips
4. MUDRA, Uliana & ANDREYCHYN, Serhiy. The effectiveness of complex therapy in patients with gout using carbon enterosorbent. *Journal of Education, Health and Sport* [online]. 20 July 2020, T. 10, nr 7, s. 138–147. DOI 10.12775/JEHS.2020.10.07.014.
5. Лишай, А. В., Савицкая, Т. А., Цыганкова, Н. Г., Гриншпан, Д. Д., & Чен, Д. (2021). Адсорбция метиленового голубого энтеросорбентами различной природы. *Журнал Белорусского государственного университета. Химия*, *1*, 58-74. doi.org/10.33581/2520-257X-2021-1-58-74
6. A.E. Kormishina, P.G. Mizina, V.A. Kormishin, Composite enterosorbent for multipurpose use. Patent [in Russian]. RU 2682623 C1 (2019)
7. Fatullayeva, S., Tagiyev, D., Zeynalov, N. A review on enterosorbents and their application in clinical practice: Removal of toxic metals Colloid and Interface Science Communications Volume 45, November 2021, 100545. doi.org/10.1016/j.colcom.2021.100545.
8. A.A. Novokshonov, N.V. Sokolova Enterosorption method and its clinical effectiveness in the complex therapy of acute intestinal infections in children Questions Modern Pediatrics [in Russian]., 10 (2011), pp. 140-147
9. A.E. Kormishina, P.G. Mizina, I.L. Solovyeva Pharmaceutical market of medicines of adsorptive action: state and prospects Med. Bull. Bashkortostan, 13 (6) (2018), pp. 55-62
10. Budnyak, T. M., Vlasova, N. N., Golovkova, L. P., Slabon, A., & Tertykh, V. A. (2019). *Bile acids adsorption by chitoan-fumed silica enterosorbent. Colloid and Interface Science Communications, 32, 100194.* doi:10.1016/j.colcom.2019.100194
11. T.D. Phillips, S.L. Lemke, P.G. Grant Characterization of clay-based enterosorbents for the prevention of aflatoxicosis Trucksess, *et al.* (Eds.), Mycotoxins and Food Safety, Kluwer Academic Plenum Publishers (2002), pp. 157-171, doi:10.1007/978-1-4615-0629-4_16
12. Wang, M., Hearon, S. E., & Phillips, T. D. (2019). Development of enterosorbents that can be added to food and water to reduce toxin exposures during disasters. Journal of Environmental Science and Health, Part B, 1–11. doi:10.1080/03601234.2019.1604039
13. M.Wang, C.R.Maki, Y.Deng, Y.Tian, T.D.Phillips. Development of high capacity enterosorbents for Aflatoxin B1 and other hazardous chemicals Chem.Res.Toxicol., 30 (2017),pp.1694-1701 doi:10.1021/acs.chemrestox.7b00154
14. L.G. Pyanova, L.K. Gerunova, V.A. Likholobov, A.V. Sedanov Creation and prospects of using modified sorbents in veterinary medicine OmSAU Bull. [in Russian], 2 (2016), pp. 138-146
15. V.G. Nikolaev **Enterosgel: a novel organosilicon enterosorbent with a wide range of medical applications. Chapter**
16. S. Mikhalovsky, A. Khajibaev (Eds.), Biodefence, NATO Science for Peace and Security Series A: Chemistry and Biology (2011), pp. 199-221, doi:10.1007/978-94-007-0217-2_21
17. E.V. Gert, V.I. Torgashov, O.V. Zubets, F.N. Kaputskii **Preparation and properties of enterosorbents based on carboxylated microcrystalline cellulose** Cellulose, 12 (2005), pp. 517-526, doi:10.1007/s10570-005-7134-4

18. Fatullayeva, S., Tagiyev, D., Zeynalov, N. *et al.* Recent advances of chitosan-based polymers in biomedical applications and environmental protection. *J Polym Res* **29**, 259 (2022). https://doi.org/10.1007/s10965-022-03121-3

19. Azeh Engwa, G., Udoka Ferdinand, P., Nweke Nwalo, F., & N. Unachukwu, M. (2019). Mechanism and Health Effects of Heavy Metal Toxicity in Humans. doi:10.5772/intechopen.82511

20. Rodríguez, J., & Mandalunis, P. M. (2018). A Review of Metal Exposure and Its Effects on Bone Health. Journal of Toxicology, 2018, 1–11. doi:10.1155/2018/4854152

21. D. Luna-Zaragoza, E. T. Romero-Guzmán, L. R. Reyes-Gutiérrez, **Journal of Minerals and Materials Characterization and Engineering**, Vol.8 No.8, August 20, 2009

В случае Ho образуется устойчивая конфигурация s^0d^0. Значения ионизационных потенциалов B^V и Te близки: поэтому возможна передача электронов от Te и B^V при этом третий атом Te приобретает квазистабильную конфигурацию sp^3, а B^V - d^2sp^3.

Таким образом между Но и Те имеет место ионная связь, между B^V и Тековалентная. Наличие этих связей в соединениях должен подвердиться провялением полупроводниковых свойст этих соединений. То же самое можно сказать для других лантаноидов. В результате исследования физических свойств установлено, что эти соединения обладают полупроводниковыми свойствами: $\Delta E_т$ = 0,17 эВ для $HoBiTe_3$ и $\Delta E_т$ = 0,22 эВ для $HoSbTe_3$.

Так как 4f-оболочка атомов лантаноидов сравнительно слабо возбуждается при образовании химической связи [11], то максимальная вероятность f→d переходов соответствует наименьшим числам возможных состояний в вследствие f→d переходов атомах лантаноидов образуются d- состояния, что приводит к относительно близкому механизму взаимодействия их с халькогенами и халькогенов с d-переходными металлами.

Практически это подтверждается образованием однотиппых соединений лантаноидов и некоторых трехвалентных переходных металлов. Эта близость электронного строения лантаноидов определяемая f→d переходами, к электронному строению d-переходных металлов определяет сходство характера химической связи а халькогенидах этих групп, с изменением долей различных типов связи.

Из этого следует, что халькогенидные соединения лантаноидов как двойные, так и тройные и возможно более сложные обладают высокими температурами плавления и другими свойствами как и подобные соединения d-переходных элементов.

Следует обметить, что с увеличением сложности указанных соединений, с возникновением различных типов связи ослабляется связь через d-состояния, что приводит к постепенному уменьшению температуры плавления и др.

ЛИТЕРАТУРА

1. Рустамов П.Г., Садыгов Ф.М., Меликова З.Д. и др. Синтез и исследование электрофизических свойств соединений типа $LnB^{V}Te_3$ (Ln-Sm, Y, Tb, Ho, Tm, Lu) Изв. АН СССР, Неорган. Материал 1979 Т.16, №5, с.775-777.
2. Рустамов П.Г., Садыгов Ф.М., Меликова З.Д. и др. Диаграмма состояния системы Sm_2Te_3-Bi_2Te_3. Журн. Неорган. Химии 1977, Т.22, № 4, с. 1062-1064.
3. Рустамов П.Г., Садыгов Ф.М., Меликова З.Д. и др. Система Y_2Te_3-Bi_2Te_3 Журн. Неорган. Химии 1978, Т.23, №3, с.849-850.
4. Рустамов П.Г., Садыгов Ф.М., Меликова З.Д. и др. Система Ce_2Te_3-Bi_2Te_3 Журн. Неорган. Химии 1979, Т.24, №3, с. 764-766.
5. Садыгов Ф.М., Рустамов П.Г.и др. Система Dy-Bi-Te. Изв. АН СССР Ж неорган. материал 1987, Т.23, №4, с. 545-550.
6. Sadıqov F.M., Məmmədova N.Ş., Məmmədova S.H., Cabbarlı F.B. "$LnB^{V}X_3$ (B^{V} -Sb,Bi: X - Se, Te) tipli üçlü lantonoid xalkostubnit və xalkobismutidlərin dolayı üsulla sintezi" Gəncə Dövlət Universiteti "Kimya və biologiyanın aktual problemləri" Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünə həsr olunan Beynəlxalq Elmi Konfrans 2022, s403-405.
7. Садыгов Ф.М. Характер фазообразование в тройной системе Sm-Bi-Se // Ж неорган. материал - Баку:- 1993.Т.38, №6,- с. 1065-1070.
8. Rustamov P.G., Sadygov F.M., Abilov G.I. Electrophysical properties of $CeBiTe_3$ short. Notes. Phys. Status Solidi 86, k113, 1984.
9. Рустамов П.Г., Алиев О.М., Эйнуллаев А.В., Алиев И.П. Хальколантанаты редких элементов. М: Наука, 1989, с 284.
10. Sadıqov F.M., İlyaslı T.M., Məmmədova N.Ş. "$HoSbTe_3$ və $HoBiTe_3$ birləşmələrinin dolayi üsulla sintezi" Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş doktorant, magistr və gənc tədqiqatçıların "Kimyanın aktual problemləri" XIV Beynəlxalq elmi konfransı materialları Bakı 2021, s.298-299.
11. Н.С. Ахмедов Неорганическая химия М: Высшая школа, 1998, с 670.

2023. Volume 7, Number 2 ***Pages 188-194***

UOT: 541.64

POLİVİNİL XLORİDİN TERMİKİ DESTRUKSİYASI VƏ STABİLLƏŞDİRİLMƏSİ

HƏSƏNOV R.M., MƏMMƏDOVA R.E., ƏMİROV S.Q.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

roman.manar6299@gmail.com

XÜLASƏ

Polivinil xlorid istehsal həcminə görə polietilendən və polipropilendən sonra ən çox istehsal edilən kommersial polimerdir. Buna baxmayaraq onun termiki stabilliyi aşağıdır və emal edilərkən termiki destruksiyanın baş verməsi qaçınılmazdır. Polivinil xloriddən məmulatlar istehsal etməyə imkan verən termostabilizatorların istifadəsi polivinil xloridin dünya miqyaslı geniş istifadə edilən polimer olmasına gətirib çıxarmışdır. Termostabilizator kimi ən çox istifadə edilən ağır metalların üzvi və qeyri-üzvi duzlarıdır ki, bu birləşmələr ətraf mühitin çirklənməsi və bilavasitə insan sağlamlığına mənfi təsirlərinə görə narahatlıq doğurur. Ekoloji olaraq təmiz, iqtisadi səmərəli və bir o qədər də effektiv termostabilizatorun tapılması əsas tədqiqat mövzularından biridir. Bu məqsədlə bir çox üzvi və qeyri-üzvi, ekoloji olaraq narahatlıq doğurmayan birləşmələr sintez edilərək termostabilizator kimi tədqiq edilmişdir. Bir sıra hallarda bu birləşmələrin birlikdə istifadəsi zamanı sinergetik effekt müşahidə olunmuşdur.

Açar sözlər: polivinil xlorid, termostabilizator, termodestruksiya, termoksidestruksiya, dexlorlaşma.

THERMAL DEGRADATİON AND STABİLİZATİON OF POLYVİNYL CHLORİDE (PVC)

ABSTRACT

Polyvinyl chloride (PVC) is the third most widely produced commercial polymer after polyethylene and polypropylene, despite having lower thermal stability, leading to inevitable thermal degradation during processing. The use of stabilizers is essential in the production of PVC derivatives, contributing to its extensive global use. The most commonly used stabilizers are heavy metals and their inorganic salts, posing environmental pollution concerns and direct health risks.Finding an ecologically clean, economically viable, and efficient stabilizer is a key research topic in the field. For this purpose, various organic and inorganic compounds that do not pose ecological concerns have been synthesized and investigated as stabilizers. In some cases, the synergistic effect of these compounds has been observed during their combined use.

Keywords: polyvinyl chloride, stabilizer, thermal degradation, thermooxidative degradation, dechlorination.

ТЕРМИЧЕСКАЯ ДЕСТРУКЦИЯ И СТАБИЛИЗАЦИЯ ПОЛИВИНИЛХЛОРИДА (ПХВ)

РЕЗЮМЕ

Поливинилхлорид (ПХВ) является третьим по объему производства коммерческим полимером после полиэтилена и полипропилена, несмотря на его низкую термическую стабильность, что приводит к неизбежной термической деструкции в процессе обработки. Использование стабилизаторов, позволяющих производить изделия из поливинилхлорида, сделало его одним из наиболее широко используемых полимеров в мире. Среди наиболее часто используемых стабилизаторов - соли тяжелых металлов и их неорганические соединения, которые вызывают беспокойство из-за загрязнения окружающей среды и прямых воздействий на здоровье человека. Нахождение экологически чистого, экономически целесообразного и эффективного стабилизатора является одной из основных тем исследований с экологической точки зрения. В этом контексте были синтезированы и исследованы различные органические и неорганические соединения, не вызывающие экологических опасений, в качестве стабилизаторов. В некоторых случаях при их совместном использовании наблюдался синергетический эффект.

Ключевые слова: поливинилхлорид, стабилизатор, термическая деструкция, термоокислительная деструкция, дехлорация.

GİRİŞ

Polivinil xlorid ümumi məqsədlər üçün istifadə edilən termoplastik polimerlərdən biridir. Onun geniş istifadə sahələri vardır ki, ən çox profil məmulatlarının istehsalında polivinil xloriddən geniş istifadə edilir. Polivinil xlorid istehsal həcminə görə polipropilen və polietilendən sonra dünyada üçüncü ən çox istehsal edilən polimerdir, onun illik istehsal miqdarı 40 milyon tonu ötmüşdür (2023). [1]

Polivinil xlorid termiki olaraq dayanıqsızdır və o, müxtəlif məmulatların istehsalı zamanı yüksək temperatura məruz qalır. Temperaturun təsirindən HCl molekullarının əmələ gəlməsi ilə müşaiyət olunan termiki destruksiya hadisəsi baş verir. Xlor atomlarının qopduğu polimer zəncirində polien seqmentləri əmələ gəlməsi və bu seqmentlərin miqdarının artması ilə plastik kütlənin rəngi tədricən tündləşməyə başlayır. İlkin olaraq sarı, növbəti mərhələdə narıncı, qırmızı, qonur və qara rənglərinin əmələ gəlməsi ilə destruksiya davam edir. Polivinil xlorid makromolekullarında baş verən bu dəyişikliklər onun digər fiziki-mexaniki və kimyəvi xüsusiyyətlərinə də təsir göstərir. Bütün bu problemləri aradan qaldırmaq və yüksək temperaturda polivinil xlorid əsaslı plastik kütləni asanlıqla emal edərək məmulata çevirmək mümkün olsun deyə bir sıra termostabilizator qatqılarından istifadə edilməkdədir. Bunlara qurğuşunun üzvi və qeyri-üzvi duzları, qalay-üzvi komponentlər, metal karboksilatları və bir sıra üzvi birləşmələr daxildir. Dünyada ən geniş istifadə edilən termostabilizatorlar qurğuşun kimi ağır metalların duzlarıdır, bu birləşmələr ətraf mühit üçün zərərli olduqlarına görə bir sıra ölkələrdə istifadəsi məhdudlaşdırılıb və bir çox ölkələrdə də bənzər tədbirlər görülməkdədir. Qalay-üzvi komponentlərin istifadəsi də onların termostabilizator kimi effektivliyi yüksək olmasına baxmayaraq həm iqtisadi, həm də ekoloji olaraq sərfəli hesab edilmir. Başqa metalların karboksilatlarının istifadəsi isə yuxarıdakı metalların birləşmələri qədər effektiv deyil, lakin onlar ekoloji olaraq təmiz hesab edilirlər. Bu baxımdan polivinil xlorid üçün iqtisadi səmərəli, ətraf mühit üçün təhlükə törətməyən, asan əldə edilən və bir o qədər də effektiv termostabilizator birləşmələrinin sintez edilməsi aktual məsələdir. [2,3]

TƏDQİQAT METODLARI

Polivinil xlorid geniş istifadə sahələrinə sahib polimer olmağına baxmayaraq termiki olaraq dayanıqsızdır. Polimer zəncirlərinə birləşmiş şəkildə olan xlor atomlarının mövcudluğu polimerin yanmaya qarşı müqavimətini artırır, lakin yüksək temperaturun təsirindən bu xlor atomları polimer zəncirindən qopa bilirlər. Bu proses əsasən polivinil xloridin şüşəkeçid temperaturu olan, təxmini 70° C-dən etibarən başlayaraq 120-130° C-də intensiv hal alır. Polimer zəncirindən ayrılmış xlor atomları təkrar polimer zəncirinə təsir edərək hidrogen atomu qopararaq destruksiyada avtokatalizator rolu oynayır. Polimer zəncirinin xlor və hidrogen itirən hissələrində iki qat rabitəyə sahib polien qrupları meydana gəlir ki, bu da polimerin rənginin tədricən tündləşməsinə gətirib çıxarır. Temperaturun və uzunmüddətli istismarın təsirindən əmələ gəlmiş bu polien qrupları oksigen ilə reaksiyaya girərək dayanıqsız peroksidlər əmələ gətirir, bu peroksidlərin parçalanması ilə polimer zənciri təkrar destruksiyaya məruz qalır. Bütün bunların nəticəsində polimer əsaslı plastik kütlə özünün ilkin fiziki-mexaniki və kimyəvi xüsusiyyətlərini itirərək istismara yararsız hala düşür. Termiki destruksiyanın əsas hissəsi polivinil xloridin emalı prosesində yüksək temperatura məruz qaldığı şəraitdə baş verir. Destruksiya prosesinin getmə polimer kompozisiyasının tərkibinə daxil olan digər əlavələrin də polimerə effektiv təsirini məhdudlaşdırır. [4]

Polivinil xlorid əsaslı plastik kütlələrdən məmulatların istehsalı prosesi bəzi hallarda yuxarıda göstərilən temperaturdan çox daha yüksək temperaturlarda həyata keçirilir. Bu temperaturlarda polivinil xloridin termiki destruksiyasının baş verməsi qaçınılmazdır, lakin emal prosesinin həyata keçirildiyi müddətdə termiki stabilliyin təmin edilməsi üçün termostabilizatorlardan istifadə olunduqda termiki destruksiyanı ləngitmək və avtokatalizin qarşısını almaq mümkündür.

Termostabilizatorun plastik kütlə tərkibində necə təsir göstərməsi ilə bağlı aparılmış elmi tədqiqat işlərinə əsasən müəyyən fikirlər meydana gəlmişdir. Seçilmiş termostabilizatorun növündən asılı olaraq komponentin polimerin kimyəvi destruksiyasına qarşı oynadığı rol müxtəlif ola bilər. Bəzi hallarda seçilmiş termostabilizatorun effektivliyi plastik kütlənin tərkibinə daxil edilmiş digər birləşmələrin təsirindən arta və ya azala bilir. Aparılmış bir sıra elmi tədqiqat işlərində fərqli və yaxın mənşəli komponentlərin polivinil xloridin termiki stabilliyinə təsiri öyrənilmişdir.

Qeyri-üzvi mənşəli termostabilizatorlar kimi hidrotalsitlər diqqət cəlb edir, həmiçinin bu birləşmələrin bəzi nümayəndələri kommersial termostabilizator kimi də istifadə olunmaqdadır. İki laylı hidrotalsitlər iki müxtəlif metalların hidroksidlərindən təşkil olunmuşdurlar. Bu birləşmələr hidroksidlərin birlikdə çokdürülməsi ilə əldə olunur ki, iki müxtəlif metal hidroksidi birlikdə özünəxas kimyəvi struktur meydana gətirir. Bu birləşmələrdən termostabilizator kimi istifadə etdikdə müvafiq metalların hidroksidlərinin ayrı-ayrılıqda göstərdikləri termostabilləşdirici təsirdən daha yaxşı təsir göstərir və kimyəvi mövcud struktur uzun müddət polimerin destruksiyasından əmələ gələn HCl-i effektiv şəkildə udmaq qabiliyyətinə malikdir. Müəyyən müddət keçdikdən sonra bu kimyəvi struktur tədricən dağılaraq müvafiq metalların xloridlərinə çevrilirlər. İki laylı hidrotalsitlərin əmələ gələn HCl-u adsorbsiya etmələri ilə yanaşı onların səthlərində olan müsbət yükə malik mərkəzlərin polimer zəncirindəki xlor atomlarının elektromənfiliklərini lokallaşdırdığı da düşünülür. [5]

Bu birləşmələrin polivinil xlorid üzərindəki təsirini daha yaxşı öyrənmək üçün benzimidizol törəmələri ilə modifikasiya edilmiş Zn-Al, karbon nanoborucuqlarla qüvvətləndirilmiş Ni-Al, müxtəlif üzvi birləşmələrlə işlənmiş Mg-Al ikilaylı hidrotalsitləri tədqiq edilmişdir. Zn-Al tərkibli birləşmələrdən istifadə etdikdə termostabilliyin bir müddət saxlanılmasına nail olunsa da, sonrakı mərhələdə əmələ gəlmiş metal xloridləri destruksiya prosesini katalizə etmişdir. İlkin mərhələdə müvafiq metalların əmələ gətirdiyi struktur HCl-i effektiv udma qabiliyyətinə malikdir. HCl dumanına məruz qoyulmuş nümunələrin elektron mikroskop ilə müşahidəsindən aydın olmuşdur ki, udma prosesi ilə əmələ gələn metal xloridlərinin hidrotalsit strukturundan ayrılması struktur dağılmamış baş verir. Metal xloridlərinin miqdarı artdıqca destruksiya intensivləşir. Gələcəkdə polivinil xlorid əsaslı kompozisiyaların tərkibindən xlorun xaric edilməsi və qalığın karbonizasiya edilərək kömür istehsalı düşünülərsə bu birləşmələrdən termostabilizator kimi istifadə edilməsi məqsədəuyğun hesab edilə bilər. Ni-Al tərkibli birləşmələrin karbon nanoborucuqlarla gücləndirilməsi ilə onun polimer kütləsində daha yaxşı paylanmasına və polimerin termiki stabilliyini daha uzun müddət qorumasına nail olunmuşdur. Anoloji hal Mg-Al tərkibli hidrotalsit nümunələrində də müşahidə edilmişdir. Üzvi birləşmələrlə iki laylı hidrotalsitin modifikasiya edilməsi onun polimer fazasında daha yaxşı paylanmasını təmin edir və termiki stabilliyini daha uzun müddət qoruyur. Ni-Al birləşmələrinin karbon

nanoborucuqlarla modifikasiyası onun termostabilizator kimi effektivliyini əhəmiyyətli dərəcədə artırmasına baxmayaraq prosesi də çətinləşdirir. Bu baxımdan üzvi birləşmələrlə modifikasiya edilmiş Mg-Al birləşmələri üstünlüyə malikdirlər. Yuxarıda da deyildiyi kimi iki laylı metal hidrotalsitlərinin termostabilizator kimi təsiri polimer zəncirinə bitişik olan xlorun elektromənfiliyini lokallaşdırması və əmələ gələn HCl-u adsorbsiya etməsi ilə açıqlana bilər. Lakin metal-üzvi komponentlərin əksinə bu birləşmələr plastik kütlənin özlülüyünü artırır və yağlayıcılıq xassəsi mövcud deyil. [6-8]

Qeyri-üzvi birləşmələrin hissəcik ölçülərinin də onun polivinil xloridə termostabilizator kimi təsir göstərməsində əhəmiyyətli rolu vardır. Polivinil xloridin emalı prosesində doldurucu, rəngləyici və s. kimi istifadə edilən bir sıra birləşmələrin hissəcik ölçülərinin kiçildilməsi ilə onun polimerin termiki stabilliyinə təsir göstərməsi aşkar edilmişdir. Bu xüsusiyyətin meydana çıxması ikilaylı hidrotalsitlərdə olduğu kimi hissəciklərin daha çox HCl-i tutması ilə izah edilir. Bununla yanaşı bu hissəciklərin nanoölçüyə qədər kiçildilməsi və onların bir sıra üzvi birləşmələrlə modifikasiya edilməsi onların bilavasitə termostabilizator kimi istifadə edilməsinə imkan verir. SiO_2 nanohissəciklərinin polivinil xloridə daxil edilməsi ilə 220° C-ə kimi termoqravimetrik analizdə ciddi kütlə itkisinin olmadığı müşahidə edilmişdir. Nanoölçülü hissəciklərdən ümumiməqsədli polimer olan polivinil xlorid əsaslı kompozisiyaların hazırlanmasında istifadə edilməsi hələlik iqtisadi olaraq səmərəli hesab edilmir. [9,10]

Aromatik poliamid və xitosanla modifikasiya olunmuş ZnO nanohissəciklərindən (CMZN) ibarət yeni polivinilxlorid (PVC) nanokompozisiyası yüksək termiki sabitlik, aşağı istilikkeçiricilik və daha yaxşı mexaniki xassələr göstərmişdir. Tərkibində PVX, xitosanla modifikasiya edilmiş ZnO nanohissəcikləri və yeni sintez edilmiş poliamid (PA) olan üçlü nanokompozisiyalar məhlul-tökmə üsulu ilə hazırlanmışdır. Potensial gücləndirici kimi xitosanla modifikasiya edilmiş ZnO nanohissəcikləri PA ilə birləşdirilmiş və PVX fazasına daxil edilmişdir. Bütün PVX nümunələrinin morfologiyası, mexaniki, termiki və yanma xassələri tədqiq edilmiş, xitosanla modifikasiya edilmiş ZnO nanohissəciklərinin mövcudluğunda, PA PVX-nin bütün tədqiq edilmiş xüsusiyyətlərinin sinergetik olaraq yaxşılaşması müşahidə olunmuşdur. Tərkibində 1% PA və xitosanla modifikasiya edilmiş ZnO nanohissəcikləri olan PVX/CMZN-PA kompozisiyalarının kütləsinin 5% azalması temperaturu 195° C -dən 243° C-ə qədər artmışdır. PVX üçün istilik keçirmə sürətinin pik həddi 131 Vt/q-dan PA və CMZN-in hər birinin miqdarı 3% olan PVX/CMZN-PA nanokompozisiyası üçün 104 Vt/q-a düşmüşdür. Mexaniki gərginlik altında aparılmış sınaqlara görə normal PVX ilə müqayisədə, dartılma gərginliyi 35.4 – dən 53.4 MPa-a kimi artmışdır. [11]

Termostabilizator kimi biomənşəli, əsasən də bitki mənşəli xammallardan istifadə edərək sintez edilmiş metal-üzvi komponentlər geniş istifadə olunmaqdadır. Müxtəlif metalların sabunları eləcə də bəzi metallar ilə bio birləşmələrin xelatları termostabilizator kimi tədqiq edilmişdir. Kauçuk toxumu yağından sintez edilmiş sink sabunları və bu yağın epoksidləşdirilməsindən alınmış epoksi-yağın polivinil xloridə təsiri öyrənilmiş və müəyyən edilmişdir ki, bu birləşmələrin birlikdə istifadəsi zamanı plastik kütlənin daha uzun müddət termiki sabitliyinə nail olunur. Zn sabunlarının bilavasitə tətbiq edildiyi halda isə kataliz edici metal xloridlərinin əmələ gəlməsi prosesi ilə bağlı "sink yanığı" müşahidə edilir. Bundan belə bir nəticə çıxır ki, sink sabunlarının təklikdə tətbiqi məqsədəuyğun deyil.

Epoksidləşdirilmiş yağın termostabilizator kimi təsiri isə destruksiya zamanı əmələ gələn HCl-i epoksid qrupu vasitəsi ilə özünə birləşdirməsinə görədir. Əlavə olaraq epoksidləşdirilmiş bitki yağlarının polivinil xloridə plastifikator kimi tətbiqi də diqqət cəlb etməkdədir. [12]

Palma yağının rafinasiyasının yan məhsulu olan sərbəst karbon turşuları əsasında alınmış Ca və Zn sabunlarının da termostabilizator kimi təsiri öyrənilmişdir. Bu tərkibdəki komponentlər kommersial termostabilizator kimi tətbiq edilən metal karboksilatlarına uyğundurlar. Furye transformasiyalı infraqırmızı spektroskopiya (FTİR) və termoqravimetrik analizin (TGA) nəticələrindən məlum olmuşdur ki, müvafiq əsaslı Ca və Zn sabunları termostabilizator kimi effektivdirlər. Termoqravimetrik analizin nəticələrinə görə Ca karboksilatın tətbiqi zamanı 393° C-də 14%, Zn karboksilatın tətbiqi zamanı isə 311° C-də 19% kütlə itkisi müşahidə olunmuş, bu iki komponentin 4:1 kütlə nisbətində plastik kütləyə daxil edilməsi zamanı ən yüksək termiki sabitlik müşahidə edilmişdir. Metal karboksilatları termostabilizator kimi təsir mexanizmi digər birləşmələrdəkindən fərqlənir. Metal karboksilatları əmələ gələn HCl-i neytrallaşdırdığı kimi polimer zəncirində boş qalan yeri üzvi radikalla doldurur. Bu birləşmələrin plastik kütləni yağlayıcı təsiri də mövcuddur. [13]

Doymamış bitki yağlarının, xüsusi ilə də günəbaxan yağının epoksidləşdirilməsindən əldə edilən epoksi yağların (ESO) və bu yağlar əsasında sintez edilən bir sıra metalların sabunlarının PVX-ə təsiri araşdırılmışdır. Epoksi yağların ikili funksiyaya, həm termostabilləşdirici, həm də plastifikasiya edici funksiyaya sahib olduğu müəyyənləşdirilmiş və bu yağların termostabilizator kimi tətbiq edildiyi halda Zn sabunlarından daha effektiv olduğu aşkar edilmişdir. Ümumilikdə aparılmış tədqiqatda aşağıdakı ardıcıllıqla birləşmələrin termostabilizator kimi effektivliyi artır : Zn-ESO < ESO < Cd-ESO < Ba-ESO < Pb-ESO. Həmiçinin ESO-nun trikalsium disitrat və civə (II) asetat ilə birlikdə tətbiqi zamanı da polivinil xloridin termiki sabitliyini artırdığı aşkar edilmişdir.[14, 15]

Eləcə də liqnin ilə kalsium hidroksidin xelatları və bitki mənşəli tanninlər ilə kalsium və kadmiumun kompleksi də termostabilizator kimi tədqiq edilmişdir. Bitki mənşəli lignin yodid turşusu ilə modifikasiya edilərək $Ca(OH)_2$ ilə qarışdırılmışdır. Hazırlanmış komponentin 1, 2, 4 kütlə hissədə polimer ilə qarışıqlarının termiki stabilliyi 190° C-də tədqiq edilmişdir. Liqnin-Ca xelatlarının az miqdarda PVX-ə əlavə edildiyi təqdirdə onun termiki stabilliyini artırdığı aşkar edilmişdir. Bu qarışığın kommersial termostabilizatorlara köməkçi vasitə kimi əlavə olunması məqsədəuyğundur. Tannin komplekslərinin PVX-ə əlavə edilməsi ilə isə komponentin həm termostabilizator həm də antioksidant kimi davrandığı aşkar edilmişdir. Bu tədqiqat zamanı istinad kimi Reapak B-NT/7060 termostabilizatoru tətbiq edilmişdir. Tannin – Ca kompleksi 1, 2, 3 k.h-lərdə 10 k.h DOF əlavə edilmiş PVX ilə 1650 C-də qapalı qarışdırıcı ilə əridilərək qarışdırılmışdır. Tannin – Ca kompleksi FT-İR spektroskopiyası, skanlı elektron mikroskopu (SEM) və səpələyici X şüası analizi (EDX) və əlavə olaraq differensiyal skanlama kalorimetri (DSC) vasitəsilə xarakterizə edilmişdir. İnert atmosfer mühitində tannin kompleksinin stabilləşdirmə təsiri termoqravimetrik (TGA) analiz istifadə edilərək müəyyən edilmişdir. Əlavə olaraq, DSC ilə dinamik şəraitdə oksidləşdirici atmosfer mühitində (havada) termiki stabilləşdirici təsiri xarakterizə edilmişdir. TGA termoqramlarına görə, bu kompleks ilə stabilləşdirilmiş PVX – nin əsas destruksiya temperaturu minimal 280o C-dən başlayaraq 310o C-ə kimi olmuşdur. Bu

temperatur göstəriciləri ənənəvi stabilizatorlar ilə stabilləşdirilmiş PVX üçün 255 – 293° C olmuşdur. TGA, DSC, SEM və EDX – in nəticələrinə əsasən tannin-Ca kompleksinin PVX – nin həm termiki destruksiyasına, həm də termiki oksidləşməsinə (termoksi destruksiya) zəiflədici təsir göstərdiyini göstərməkdədir. Kadmium kompleksindən istifadə edildikdə də analoji nəticələr əldə olunmuşdur, lakin asan əldə edilməsi və ekoloji olaraq daha təmiz olmasına görə Ca-tannin birləşmələri daha çox diqqət cəlb edir. [16-18]

NƏTİCƏ

Polivinil xloridə termostabilizator kimi təsir bir çox birləşmələr öyrənilsə də ən effektiv termostabilizator komponentinin tapılması aktual məsələ olaraq qalmaqdadır. Ən geniş istifadə edilən qurğuşun birləşmələrinin zərərli olması, kalsium-sink stearatlarının kifayət qədər effektiv olmaması və qalay-üzvi komponentlərin baha olması bu problemi ciddiləşdirir. Geniş xammal resurslarının mövcudluğu və aparılmış tədqiqat işlərindən əldə edilmiş müsbət nəticələrə görə bitki mənşəli xammallardan əldə edilən termostabilizator komponentləri bu problemin həllində vacib rol oynaya bilər. Bu baxımdan bitki yağları əsasında sintez edilmiş termostabilizator komponentləri ön sırada gəlir. Bu istiqamətdə aparılmış elmi-tədqiqat işlərinin bir çoxundan müsbət və ümidverici nəticələrin əldə edilməsi bu istiqamətdə yeni tədqiqat işlərinin aparılmasına əsas verir.

ƏDƏBİYYAT SİYAHISI

1. E-D ComaniĠă, C. Ghinea, M. Roúca, I.M. Simion, M. Petraru, M. Gavrilescu. The 5th IEEE International Conference on E-Health and Bioengineering. *"Environmental Impacts of Polyvinyl Chloride (PVC) Production Process", Iaúi, Romania, 19-21 November 19-21, 2015, p 113-116*
2. A Turner, M Filella. *Hazardous metal additives in plastics and their environmental impacts,* Environment International, Vol 156, p. 1-10, 2021
3. M. Valentina, C. Pierfrancesco, A. Veronica. *Polymer additives,* Physical Sciences Reviews, Vol.2, Issue 6, p.1-20, 2017
4. J. Yu, L. Sun, C. Ma, H. Yao. *Thermal degradation of PVC: A review,* Waste management, Vol.48, p.300-314, 2016
5. L van der Ven, M.L.M van Gemert, L.F Batenburg, J.J Keern, L.H Gielgens, T.P.M Koster, H.R Fischer. *On the action of hydrotalcite-like clay materials as stabilizers in polyvinylchloride*, Applied Clay Science, Vol.17, Issues 1–2, p.25-34, 2000
6. D. Jin, S. Khanal, S. Xu. *Effects of ZnAl layered double hydroxide and benzimidazole derivative on the dechlorination of poly(vinyl chloride),* Applied Clay Science, Vol.208, 106114, ISSN 0169-1317, 2021
7. L. Fan, L. Yang, Y. Lin, G. Fan, F. Li. *Enhanced thermal stabilization effect of hybrid nanocomposite of Ni–Al layered double hydroxide/carbon nanotubes on polyvinyl chloride resin,* Polymer Degradation and Stability, Vol.176, 109153, ISSN 0141-3910, 2020
8. Y. Guo, Q. Zhang, Q. Hu, W. Tian, F. Leroux, P. Tang, D. Li, Y. Feng. *Size-dependent effect of MgAl-layered double hydroxides derived from Mg(OH)2 on thermal stability of poly(vinyl chloride),* Materials Today Communications, Vol.29, 102851, ISSN 2352-4928, 2021
9. J. Tomaszewska, T. Sterzyński, D. Walczak. *Thermal Stability of Nanosilica-Modified Poly(vinyl chloride), Polymers*, Vol.13, No.2057, p.1-18, 2021
10. Fritz Allhof, Patrick Lin, Daniel Moore. *What is Nanotechnology and Why Does It Matter?,* First Edition, Tübitak, 2014
11. M. Hajibeygi, M. Maleki, M. Shabanian, F. Ducos, H. Vahabi. *New polyvinyl chloride (PVC) nanocomposite consisting of aromatic polyamide and chitosan modified ZnO nanoparticles with enhanced thermal stability, low heat release rate and improved mechanical properties,* Applied Surface Science, Vol.439 p.1163-1179, 2018

12. T. O. Egbuchunam, D. Balköse, F. E. Okieimen. *Effect of zinc soaps of rubber seed oil (RSO) and/or epoxidised rubber seed oil (ERSO) on the thermal stability of PVC plastigels,* Polymer Degradation and Stability, Vol.92, Issue 8, p.1572-1582, 2007
13. I. D. G.Arsa Putrawan, A. Indarto, Y. Octavia. *Thermal stabilization of polyvinyl chloride by calcium and zinc carboxylates derived from byproduct of palm oil refining*, Helion, Vol.8, İssue 8, E10079, 2022
14. **O. Chelil, N. Belhaneche-Bensemra, D. Lopez Garcia, M. Fernandez-Garcia, M. T. Benaniba.** *Preparation of epoxidized sunflower oil metal soap derivatives and their use as heat stabilizers for polyvinyl chloride*, **Turkish Journal of Chemistry, Vol.43, No.2, p.582-593, 2022**
15. **M. T. Taghizadeh, N. Nalbandi, A. Bahadori.** ***Stabilizing effect of epoxidized sunflower oil as secondary stabilizer for Ca/Hg stabilized PVC,*** **Xpress Polymer Letters, Vol.2, No.1, p 65-76, 2008**
16. H. A. Shnawa. *Evaluation of Lignin-Calcium Complex as Thermal Stabilizer for Poly Vinyl Chloride,* Materials Sciences and Applications, Vol.2, p.692-699, 2011
17. H. Shnawa, M. Khalaf, Y. Jahani and A. Taobi. *Efficient Thermal Stabilization of Polyvinyl Chloride with Tannin-Ca Complex as Bio-Based Thermal Stabilizer*, Materials Sciences and Applications, Vol.6, No.5, p.360-372, 2015
18. H. A. Shnawa. *Thermal stabilization of polyvinyl chloride with traditional and naturally derived antioxidant and thermal stabilizer synthesized from tannins,* J Therm Anal Calorim, Vol.129, p.789–799, 2017

2023. Volume 7, Number 2 ***Pages 195-198***

UOT: 711.(55:504 (479.24)

RESEARCH OF ECOLOGICAL-CHEMICAL INDICATORS OF KHOJASAN LAKE OF THE ABSHERON PENINSULA

[1]MUSTAFAYEV ISLAM., [2]HAJIYEVA SEVINJ., [2]ALIYEVA TARANA

[1]Institute of Radiation Problems of ANAS,

[2]Baku State University

Baku, Azerbaijan

tarana_chem@mail.ru

ABSTRACT

The lakes of the Absheron peninsula play an important role in moistening the climate and cleaning the air basin of the capital. There are more than 250 lakes in Absheron. Over the past 150 years, with the development of industry in Azerbaijan, many lakes on the Absheron peninsula have been polluted. Most of the lakes on the territory of Absheron have turned into a serious negative factor that complicates the geological and ecological situation both in terms of hydrodynamic and hydrochemical indicators. The unsystematic discharge and inflow of water from various sources contribute to the rise in the level of lakes, the capture of new territories by lake waters, which, in turn, improves the supply of groundwater. The waters of almost all lakes are salty, unsuitable for use, their composition is enriched with chemical elements and compounds, organic substances.

Key words: Khojasan Lake, heavy metals, water salinity, soluble oxygen, pH, pollution, environmental monitoring

ABŞERON YARIMADASININ XOCASƏN GÖLÜNÜN EKOLOJİ-KİMYƏVİ GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

XÜLASƏ

Abşeron yarımadasının gölləri iqlimin nəmləndirilməsində və paytaxtın hava hövzəsinin təmizlənməsində mühüm rol oynayır. Abşeronda 250-dən çox göl var. Son 150 ildə Azərbaycanda sənayenin inkişafı ilə Abşeron yarımadasında bir çox göllər çirklənmişdir. Abşeron ərazisindəki göllərin əksəriyyəti həm hidrodinamik, həm də hidrokimyəvi göstəricilərinə görə geoloji və ekoloji vəziyyəti çətinləşdirən ciddi neqativ amilə çevrilib. Müxtəlif mənbələrdən suların sistemsiz axıdılması və daxil olması göllərin səviyyəsinin qalxmasına, göl suları tərəfindən yeni ərazilərin tutulmasına şərait yaradır ki, bu da öz növbəsində yeraltı suların təminatını yaxşılaşdırır. Demək olar ki, bütün göllərin suları duzlu, istifadəyə yararsızdır, tərkibi kimyəvi elementlər və birləşmələrlə, üzvi maddələrlə zəngindir.

Açar sözlər: Xocasən gölü, ağır metallar, suyun duzluluğu, həll olunan oksigen, pH, çirklənmə, ətraf mühitin monitorinqi

ИССЛЕДОВАНИЯ ЭКОЛОГО-ХИМИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ ОЗЕРА ХОДЖАСАН АБШЕРОНСКОГО ПОЛУОСТРОВА

РЕЗЮМЕ

Озера полуострова Абшерон играют важную роль в увлажнении климата в очистке воздушного бассейна столицы. В Абшероне более 250 озер. За последние 150 лет, с развитием промышленности в Азербайджане, многие озера на полуострове Абшерон были загрязнены. Большинство озер на территории Абшерона превратились в серьезный негативный фактор, осложняющий геолого-экологическую обстановку как по гидродинамическим, так и по гидрохимическим показателям. Бессистемный сброс и поступление вод из разных источников способствуют подъему уровня озер, захвату озерными водами новых территорий, что, в свою очередь, способствует улучшению питания грунтовых вод. Воды практически всех озер соленые, непригодные для использования, их состав обогащен химическими элементами и соединениями, органическими веществами.

Ключевые слова: озеро Ходжасан, тяжелые металлы, соленость воды, растворимый кислород, pH, загрязнение, мониторинг окружающей среды

INTRODUCTION

EXPERIMENTAL PART

The change in the level of the Caspian Sea also affects the ecological conditions of the Absheron lakes and their hydrological regime. As the sea level rises, the groundwater level also increases, and as a result, the amount of water in the Absheron lakes increases. When sea levels fall, the opposite process occurs. One of the reasons for this problem is the construction of new settlements in Absheron as a result of the rapid growth of industry. In settlements built in houses, due to the lack of a unified sewerage system, domestic wastewater is discharged into nearby lakes and surrounding areas. As a result, these reservoirs are polluted with harmful substances and are exposed to anthropogenic impacts.

Environmentalists also believe that the main reason for the pollution of the Apsheron Lakes is the lack of a unified sewerage system on the peninsula and the discharge of wastewater from newly built settlements and industrial enterprises into nearby lakes. On the shores of most lakes in Absheron there are residential areas - Khojasan, Kurdakhany, Bul-Bul, Amirjany, Zabrat, Zykh, Boyukshor and others.

Since the 1980s, faecal, domestic and industrial waters have been discharged through open channels without a treatment process into Lake Khojasan, which has seriously deteriorated the sanitary condition of the lake.

In accordance with the mineralization of the water of Lake Khojasan, it belongs to the group of salt-water lakes, and the mineralization of the water is much higher than that of others. The oxygen regime of the lake is completely broken. One of the main reasons why soluble oxygen is weak in the water of Lake Khojasan is the acceleration of biological processes as a result of the oxidation of pollutants. That is why the biochemical consumption of oxygen in the lake is several times higher. As a result of the influence of natural factors and wastewater into Lake Khojasan, the concentrations of cations and anions in the water also increase sharply with an increase in the mineralization of the lake. Thus, the amount of calcium, magnesium and chlorides is higher than the sanitary norm, and sulfates are several times higher.

The concentrations of oil products and phenols, which are the main pollutants of the lake, are many times higher than the MPC. Copper, cadmium, iron, zinc, manganese and other heavy metals are the main pollutants of the lake and exceed the MPC by several times.

Fig.1. Lake Khojasan

Synthetic surfactants in Lake Khojasan exceed the MPC by several times. Together with wastewater, surfactants enter the water of Lake Khojasan [1-2]. Synthetic surfactants contain sodium polyphosphates in which detergents are dissolved, as well as a number of additional ingredients that are toxic to aquatic organisms [4].

We carried out ecological monitoring of Lake Khojasan and thus discovered the sources of pollution of this lake. It was found that sewage is the main culprit of pollution.

The water of Lake Khojasan, located in the Absheron Peninsula of Azerbaijan, seems clean and transparent from a distance, but as soon as you get closer to the shore, the stench makes it hard to breathe and you can see how the lake and its shores are clogged with various debris. Moreover, sewage water flows into the lake from all sides.

We have previously written about the environmental problems of Absheron, in particular, about polluted suburban lakes. According to the state program "On the socio-economic development of Baku and its suburbs in 2014-2016", all the lakes of Absheron were to be cleaned. Cleaning of Lake Khojasan began, but soon the work to clean up the reservoir was stopped.

According to local residents, it is impossible to approach the shores of the lake in rainy weather, as they turn into a swamp. The sewage waters of the Khojasan settlement and part of the Yasamal district flow here. In addition, on the shores of the lake, heavy vehicles deliver various garbage and dump it into the water.

It should be noted that over a hundred houses, various factories and workshops are located near the lake. Local residents say that a park was supposed to be laid out here, but these plans remained on paper.

In order to study the degree of pollution of water and soil with heavy metals, we carried out monitoring studies to determine the content of some heavy metals in them [2-3]. During the monitoring, we took samples of water and bottom sediments from various places of Lake Khojasan, as well as from the soil near the lake, and carried out chemical analysis using atomic absorption spectroscopy (AAS).

Samples were taken from different areas and at different depths. The greatest contamination was observed in the surface layers, at a depth of up to 0.5 m. The volume of all samples taken was 1 l and 0.5 kg. The studies were carried out on AAS ZEEnit 700P. In all samples taken, the content of heavy metals several times exceeded the MPC norms. The results of the analyzes are given in table 1.

Table 1. The amount of heavy metals in Khojasan Lake water, bottom sediments and lakeside soil samples

Heavy metals mkg/l	As	Hg	Cd	Cu	Co	Pb	Ni	Zn
Lake water sample	13,29	1,67	11,32	1,28	6,72	5,23	1,13	1,45
Bottom sediment sample	22,65	2,45	0,54	3,47	0,46	0,63	0,95	19,49
soil sample	61,26	0,79	0,6	2,69	0,48	1,78	2,16	18,57

And also found in the bottom sediments of iron 120.239 μg/kg, chromium 0.25 μg/kg, aluminum 178.26 μg/kg. Chromium 1.16 mkg/kg was found in the soil.

In water samples taken from Lake Khojasan, the amount of nitrates, nitrites, phosphates, ammonium ions was found. Found NO_3^-0,04 mg/l, NO_2^-0,11 mg/l,

PO_4^{3-} -1,38 mg/l, NH_4^+-2,65 mg/l, pH-7,88, salinity of water 1747 mg/l, soluble oxygen 3,8 mg/l in water samples taken from Lake Khojasan.

Analysis results for soil sample from Lake Khojasan: $CaCO_3$-15, 29%, organic matters 21,40 g/kgdm, total phosphorus 42,88 mg/kgdm, total nitrogen 202 mg/kgdm, total sulphate 13, 85 mg/kgdm, total phosphate 190,6 mg/kgdm.

Analysis results for bottom sediments sample from Lake Khojasan: $CaCO_3$-4,72%, organic matters 100,49 g/kgdm, total phosphorus 4,87 mg/kgdm, total nitrogen 191 mg/kgdm, Sulphur 178 mg/kgdm, total Ca 9, 086 mg/kgdm, radiation 18 mkr/h.

CONCLUSION

Cleaning and regenerating the ecosystems of the lakes around Baku is very important: this will not only improve people's health, but also lay the foundation for reconstruction and environmental protection in the future.

With the support of the Korea Vegetation Growth Trust Fund and the World Bank, the city has already begun rehabilitation work at Hojasan Lake, which has significant potential for redevelopment. And because it is located above its associated water bodies, the water quality in Khojasan has a significant impact on the other three lakes. At the moment, international experts and specialists in the field of environmental protection are conducting research work on Lake Khojasan.

REFERENCES

1. I.I Mustafaev., M.A Salmanov., S.Yu Guseynov. *Absheron Lakes*, Ryuzgar, Baku, 2001
2. S.R Hajıyeva., T.I Aliyeva., M.N Yusifova. *The ecological state of Boyuk Shor lake of Azerbaijan*, Environmental Monitoring and Assessment, 192:780, p.1-11,2020
3. S.R Hajieva., Z.T Velieva., U.N Rustamova., Kh.L Rafieva., H.F Gadzhieva., N.M Jafarova., G.G Gullerli. *Heavy metals in the water ecosystems of the Absheron lakes as an indicator of anthropogenic impact*, Natural and technical sciences, No. 2, p. 92-96, 2020
4. V.N Maistrenko., R.Z Khamitov., G.K Budnikov. *Ecological and analytical monitoring of superecotoxicants*, Moscow: Chemistry, 1996

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY
2023. Volume 7, Number 2 ***Pages 199-210***

UOT 582.282

AZƏRBAYCANDA *ASCOCHYTA* LIB. CİNSİ GÖBƏLƏKLƏRİ, ONLARIN TAKSONOMİK TƏRKİBİ VƏ SAHİB BİTKİLƏRİ

X.R.APBAYEVA, E.Ə.İSGƏNDƏRLİ, D.N.AĞAYEVA
Botanika İnstitutu, Azərbaycan Elm və Təhsil Nazirliyi
Badamdar 40, AZ1004, Bakı, Azərbaycan
xapbayeva95@mail.ru

XÜLASƏ

Tədqiqat işində Azərbaycanda yayılmış *Ascochyta* Lib. (Didymellaceae, Pleosporales) cinsinə aid göbələklər araşdırılmışdır. Cinsin növlərinin dünyada çox geniş yayılmasına və öyrənilməsinə baxmayaraq ölkə üzrə yalnız təsadüfi tapılan nümunələr haqqında məlumatlar mövcuddur. Bunu nəzərə alaraq Azərbaycanda yayılmış *Ascochyta* növləri herbaridə saxlanılan və yeni toplanılmış nümunələrə əsasən morfoloji təhlil və təyin edilmiş, növ siyahısı dəqiqləşdirilmiş, sahib bitki ardıcıllığı müəyyən edilmişdir. Növlərin böyük əksəriyyəti meşə ağacları ilə assosiasiyadadır. Həmçinin araşdırılan növlər arasında kənd təsərrüfatı bitkilərinin parazitləri (*Ascochyta citri, Ascochyta citricola, Ascochyta solanicola, Ascochyta cucumeris*) də qeyd edilmişdir. Tədqiqat işinin nəticələri 40 göbələk növünün təsviri və bəzi növlərə aid illustrasiyalar, həmçinin cədvəl və histoqram şəklində təqdim olunmuşdur.

Açar sözlər: diaqnostika, konidi, morfologiya, ostiol, parazit, piknidi, sahib bitki, sitologiya, yayılma

FUNGI OF THE GENUS *ASCOCHYTA* LIB. IN AZERBAIJAN, THEIR TAXONOMIC COMPOSITION AND HOST PLANTS

ABSTRACT

In this study the fungi of the genus *Ascochyta* Lib. (Didymellaceae, Pleosporales) distributed in Azerbaijan were investigated. Although species of the genus are widely distributed and studied throughout the world, information within the country is scarce and refers to randomly found specimens. Based on specimens stored in the herbarium and newly collected ones, *Ascochyta* species distributed in Azerbaijan were analyzed, species were identified by morphology, the list of species was clarified, and the sequence of host plants was determined. Most species are associated with forest trees. Among the studied species, pathogens (*Ascochyta citri, Ascochyta citricola, Ascochyta solanicola, Ascochyta cucumeris*) of agricultural plants were also noted. The results of the research work were presented in the form of descriptions of 40 species of fungi and illustrations of some species, as well as table and histogram.

Key words: diagnostic, conidia, morphology, ostiole, parasite, pycnidia, host plant, cytology, distribution

ГРИБЫ РОДА *ASCOCHYTA* LIB. В АЗЕРБАЙДЖАНЕ, ИХ ТАКСОНОМИЧЕСКИЙ СОСТАВ И РАСТЕНИЯ-ХОЗЯЕВА

РЕЗЮМЕ

В статье представлены результаты исследования грибов рода *Ascochyta* Lib. (Didymellaceae, Pleosporales), распространенных в Азербайджане. Несмотря на то, что виды этого рода широко распространены по всему миру и довольно хорошо изучены, однако в Азербайджане информация о них скудна и относится к случайно найденным экземплярам. На основе образцов, хранящихся в гербарии и вновь собранных экземпляров по морфологическим признакам определены виды, уточнен их список, а также определена последовательность растений-хозяев. Большинство видов встречается в составе ассоциаций с лесными деревьями. Среди изученных видов отмечены патогены (*Ascochyta citri*, *Ascochyta citricola*, *Ascochyta solanicola*, *Ascochyta cucumeris*) сельскохозяйственных растений. Результаты исследований представлены в виде описаний 40 вида грибов и иллюстраций некоторых видов, а также таблиц и рисунков.

Ключевые слова: диагностика, конидии, морфология, остиола, паразит, пикниды, растение-хозяин, цитология, распространение

GİRİŞ

Fakultətiv göbələklərin diqqəti cəlb edən və ən böyük cinslərindən biri olan *Ascochyta* Lib. (Didymellaceae, Pleosporales) ilk dəfə 1830-cu ildə M.A. Libert tərəfindən müəyyən edilmişdir [1, 2, 3]. Bir çox mədəni və yabanı bitkilərin üzərində xəstəlik törədən və böyük iqtisadi itkilərə səbəb olan bu göbələklərin hazırda 1400 növü məlumdur və onlara dünyanın hər yerində rast gəlmək mümkündür [4, 5, 6]. Bu cinsə aid növlər anamorf quruluşlarla təmsil olunub, əsasən ostiola malik piknidilər, bir septalı, şəffaf və ya solğun rəngli konidilərlə xarakterizə olunur [2]. Silindrik, ovoid, ellipsoid və ya iyşəkilli sporlar düz və ya orta hissədən əyri olub, şəffaf və ya cüzi rənglidir [1]. Bu cins əsasən *Didymella* Sacc. teleomorflarla xarakterizə olunur, lakin bəzi növləri *Leptosphaeria* Ces. & De Not. (Pleosporales) və *Mycosphaerella* Johanson (Capnodiales) cinsləri ilə əlaqələndirilir [2].

Ascochyta cinsinin növləri bitkinin yerüstü orqanlarında ləkələr əmələ gətirirlər. Göbələyin kürəşəkilli və ya konusvari piknidiləri bitki toxumasına tam və ya qismən daxil olur [1]. *Ascochyta* və *Phoma* Sacc. cinslərinin hər ikisi Dothideomycetes sinfi daxilində Pleosporales sırasına aid olan polifiletik qruplardır. *Ascochyta* və *Phoma* növləri morfoloji və fizioloji xüsusiyyətləri bölüşür və bitkilərdə oxşar xəstəlik əlamətləri yaradırlar [7]. Sakkardo sistemində *Ascochyta* və *Phoma* yalnız konidilərin morfologiyasına əsasən fərqlənir; *Ascochyta* növləri iki və çox hüceyrəli konidilər əmələ gətirdiyi halda, *Phoma* üçün tək hüceyrəli konidilər xarakterikdir. Lakin, ikihüceyrəli konidilər Pleosporales sırası daxilində bir neçə üçün müstəqil olaraq dəfələrlə təkamül etmiş kimi görünür. Bu iki cinsin konidiogen hüceyrə tipləri ultrastruktur əsasında xarakterizə edilmişdir. Bununla belə, *Phoma* növlərinin konidial ontogenezi araşdırmaq mürəkkəb olaraq qalır. İki cinsi bir-birindən ayırmaq üçün etibarlı morfoloji əlamətlərin olmaması, eləcə də ətraf mühitə yüksək dərəcədə uyğunlaşma səbəbindən bu cinslərin sistematikası tam həll edilməmiş olaraq qalır [8]. Bu, son zamanlar həm *Ascochyta*, həm də *Phoma* adlarına malik bir çox növün qeyri-müəyyən taksonomik yerləşdirilməsi ilə nəticələnmişdir [7, 9] və məsələ hal-hazırda da mübahisəli olaraq qalır.

M.A. Libert *Ascochyta* cinsinə aid göbələkləri araşdırarkən 38 növ qeyd etmişdir. Sonralar 38 növün içərisində yalnız *A. pisi*, *A. cytis*, *A. viciae* növlərinin cinsə aid olduğu müəyyənləşdirilmişdir. Bu cinsin öyrənilməsində W.G. Lasch, J.F. Klotsch, K.W.G.L. Fuckel və G.L. Rabenhorst kimi tədqiqatçıların da rolu danılmazdır [10]. Cinsin bir çox növləri P.A. Sakkardo tərəfindən araşdırılmışdır. V.A. Mel'nik "Определитель грибов рода *Ascocyta* Lib." monoqrafiyasında cinsin növlərinin 150-dən çox bitki fəsilələrində rast gəlindiyini və əsasən isə Caprifoliaceae, Chenopodiaceae, Compositae, Cruciferae, Gramineae, Labiatae, Leguminosae, Liliaceae, Ranunculaceae, Rosaceae, Solanaceae və Umbelliferae fəsilələri üzərində daha çox yayıldığını qeyd etmişdir [11].

Ascocyta göbələklərinin Azərbaycanda yayılması bir sıra tədqiqatçılar tərəfindən də araşdırılmış, ölkə üzrə ağac, kol və otlar üzərində təsadüf edilən növlər barədə məlumatlar verilmişdir [12, 13, 14]. Hazırki işin məqsədi Azərbaycanda qeydə alınmış *Ascochyta* cinsi növlərinin herbari materialları, yeni toplanılmış nümunələr, ədəbiyyat məlumatları əsasında

təhlil etmək və müasir taksonomik-nomenklatur dəyişiklikləri nəzərə alaraq cins daxilində növlərin statusunu və sahib bitki aralığını aydınlaşdırmaqdan ibarətdir.

TƏDQİQATIN MATERİAL VƏ METODU

Tədqiqat işinə AMEA Botanika İnstitutunun Mikoloji herbarisində (BAK) saxlanılan və yeni toplanılmış 50-dək herbari nüsxəsi cəlb edilmişdir. Nümunələr işıq mikroskopu (Nikon Eclipse E100, Japan) ilə müşahidə edilmiş və taksonların təyini üçün müvafiq təyinedicilərdən [10, 11] istifadə edilmişdir. Diaqnostik əhəmiyyətli strukturlar üçün hesablamalar hər 15-20 ölçmənin orta göstəricisi kimi aparılmışdır. Sahib bitki qrupları müasir filogenetik yanaşmalar nəzərə alınmaqla müəyyən edilmiş [15], bitki növlərinin statusu World Flora Online [16], göbələk növlərinin statusu isə Mycobank [17] bazasına əsasən dəqiqləşdirilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Ascocyta cinsinə aid göbələklərin morfologiyası araşdırılmışdır. Göbələk bitkinin səthində yerləşən ləkələrin üzərində səpələnmiş və ya yarpağın səthi boyu yayılmış, nizamlı konsentrik dairələrlə yerləşən, substrata tam, yarıbatmış və ya epifil piknidilərlə səciyyələnir. Piknidilər adətən müxtəlif formalı olub, kürəşəkilli, kürəşəkilli-yastı, mərciməkvaridir. Konidilər iki və çox hüceyrəli silindrik, uzunsov-ellipsoid, ellipsoid və ya iyşəkillidir. Qeyd edilənlərlə yanaşı ostiolun quruluşu, sporlar və s. kimi əlamətlər əsas götürülərək bütün herbari nüsxələrinin təhlil aparılmışdır. Növlərin qısa təsviri, toplanma yeri və sahib bitkiləri barədə məlumatlar aşağıda verilir.

1. *Ascochyta acericola* Massa, in Ferraris & Massa, Annls mycol. 10(3): 290 (1912).

Dairəvi ləkələr, solğun qırmızı kənarlı, quruyan çirkli qəhvəyidir. Piknidilər (98.4-)130-166(-250) μm çoxlu, qruplarla, kürəşəkilli-mərciməkvari, ostiol aydın, parenximatik kontekstdə, hər iki tərəfdə yuvarlaqlaşmış subsilindrikdir. Sporlar 10 x 3 μm, 1 septalı, zeytunşəkillidir. Yoxlanılıb: BAK 349, Şamaxı, Çuxuryurd kəndi, *Acer cappadocicum* Gled. üzərində (Şəkil 1. a-c).

2. *Ascochyta althaeina* Sacc. & Bizz., in Roumeguère, Fungi Selecti Galliaei Exs., Cent. 6: no. 2240 (1884).

Ləkələr çirkli qəhvəyi, tez-tez sarı haşiyəli, yarımdairəvidir. Piknidilər tam batmış, dairəvi. Sporlar 7-10 × 3.5-4 μm, uzunsov, hər iki tərəfi yuvarlaqlaşmış, 1 septalı, sıxılmış, rəngsizdir. Yoxlanılıb: BAK 356, Naxçıvan MR, Ordubad rayonu, Əndəmic kəndi, *Alcea tabrisiana* (Boiss. & Buhse) Iljin üzərində.

3. *Ascochyta australis* Speg., F. Arg. Pug. 2: no. 122.

Ləkələr səthi, geniş, 3-10 mm. diam., quru, boz-qəhvəyi, narıncı-kül rəngi haşiyələnmiş, piknidilər bitki toxumasına tam batmış, 90-100 μm diam., mərciməkvari, geniş ostiolludur. Sporlar 8-10 x 3-3.5 μm, ellipsoid, 1 septalı, orta hissədən bir qədər daralmış. Yoxlanılıb: BAK 360, Göygöl Dövlət Qoruğu, *Berberis integerrima* Bunge üzərində (Şəkil 1. ç-e).

4. *Ascochyta boltshauseri* Sacc., Z. PflKrankh. 1: 136 (1891).

Piknidilər əsasən epifil, səpələnmiş və ya qruplarla, bitki toxumasına tam batmış və ya yarı batmış, sarımtıl, oxra rəngindən solğun və ya tünd qəhvəyi rəngə, kürəşəkilli və ya mərciməkvari, diametri 200 (250) μm-ə qədər, dairəvi məsamələri 20-25 μm-ə qədərdir, kiçik

qaramtıl hüceyrələrlə əhatə olunmuşdur. Piknidi divarı nazikdir. Sporlar (12-)15-22 (25) × (3.5) 4-6 (7) μm, silindrik və ya uzunsov silindrik, hər iki ucu yuvarlaqlaşmış, düz və ya bəzən bir az əyilmiş, sıxılmış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 361, Qusar, *Vicia narbonensis* L. üzərində (Şəkil 1. ə-g).

5. *Ascochyta buxina* Sacc., Michelia 1(no. 2): 169 (1878).

Qeyri-müəyyən ləkələr qurumuş və aşınmış; səpələnmiş piknidilər, nöqtəşəkilli; yumurtaşəkilli-iyşəkillidir. Sporlar 8 x 2.5 μm, 1 septalı, daralmamış, açıq zeytun yaşılıdır. Yoxlanılıb: BAK 365, Bakı, Mərdəkan, *Buxus sempervirens* L. üzərində.

6. *Ascochyta caricae* Rabenh., Bot. Ztg. 9(25): 455 (1851).

Qırmızı-qəhvəyi ləkələr; piknidilər yarıbatmış, qızılı-qəhvəyi, həlməşikvaridir. Sporlar iyşəkilli, yağ damcılı, polimorfdur. Yoxlanılıb: BAK 366, Astara, *Ficus carica* L. üzərində.

7. *Ascochyta citri* Penz., in Saccardo, Michelia 2(no. 8): 445 (1882).

Tünd qırmızı xətt ilə haşiyələnmiş ağ rəngli ləkələr; piknidilər çoxlu, səpələnmiş, nöqtəşəkilli, 150-180 μm diam., qəhvəyi, filamentli teksturalıdır. Sporlar 6.5-9 x 3-3.5 μm, ellipsoid, septasız və ya 1 septalı, daralmamış, solğun qəhvəyidir. Yoxlanılıb: BAK 370, Astara, *Citrus deliciosa* Ten. üzərində.

8. *Ascochyta citricola* McAlpine, Fungus Diseases of *Citrus* trees in Australia: 98 (1899).

Piknidilər səpələnmiş və ya kiçik qruplarla, kürəşəkilli, membranlı, 80-140 μm diam., papillat ostiol, 20 μm diam.-dir. Sporlar 9-11 x 3-4.5 μm, ensiz ellipsoid, şəffaf, 1 septalı, daralmamış, hər iki tərəfdən yuvarlaqlaşmışdır. Yoxlanılıb: BAK 371, Astara, *Citrus limon* (L.) Osbeck üzərində.

9. *Ascochyta coryli* Sacc. & Speg., Michelia 2, 1878: 162.

Piknidilər qəhvəyi, mərciməkvari, diametri 200 μm, məsaməlidir. Sporlar 10 × 2.5 μm, uzunsov-ellipsoid və ya silindrik, düz və ya bir qədər əyilmiş, sıxılmamışdır. Yoxlanılıb: BAK 374, Xaçmaz, *Corylus avellane* L. üzərində.

10. *Ascochyta cucumeris* Fautrey & Roum., Revue mycol., Toulouse 13(no. 50): 79 (1891).

Dairəvi ləkələr nizamsız, boz rəngə çevrilir, diametri 1 santimetr, sarı dairə ilə əhatə olunmuşdur. Piknidilər kifayət qədər böyük, ləkə altında və ya üzərində yayılmışdır. Sporlar 8-11 x 3 μm, çox sayda, şəffaf, silindrik, 1 septalıdır. Yoxlanılıb: BAK 375, Astara, *Cucurbita pepo* L. üzərində.

11. *Ascochyta crus-galli* Brunaud, Sphaerops. Char. 1889: 60.

Piknidilər dağınıq, qara, çox kiçikdir. Sporlar 10-14 × 3 μm, fuziformalı, hər iki ucu yuvarlaqlaşmış, sıxılmışdır. Yoxlanılıb: BAK 376, Zəngilan, *Crataegus caucasica* K. Koch. bitkisinin quruyan yarpaqlarında.

12. *Ascochyta daturae* Sacc., Michelia 1, 1878: 163.

Piknidilər epifil və sahib bitkilərin digər hissələrində, səpələnmiş və ya qruplarla, bəzən həddindən artıq çox və sonra bir neçə piknidi birləşir, yarı batmış və ya bəzən demək olar ki, səthi, açıqdan tünd qəhvəyi rəngə, kürəşəkilli və ya mərciməkvari, 80-300 μm diam., dairəvi məsamə ilə, diametri 25 μm-ə qədər, kiçik tünd hüceyrələrlə əhatə olunmuş, gövdə və meyvələrdə papillat ostiola malikdir. Piknidi divarı nazikdir. Sporlar 6-12 × 2.5-4 (4.5) μm, silindrik, bəziləri uzunsov-ellipsoid və ya bir qədər klavatvari, düz və ya bir qədər əyilmiş, mərkəzi hissədən daralmamış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 441, Ağdam, *Solanum nigrum* L. üzərində.

13. *Ascochyta diplodina* Berl. & Bres., Annuario Soc. Alpinisti Trident. 14: 73 (1889).

Nizamsız solğun ləkələr, bəzən birləşən, kənarı az tünd olan, ləkələrdə səpələnmiş və ya kiçik qruplarla piknidilər, bitki toxumasına tam batmış, 300-350 μm diametrdə, sporlar çox saylı, slindrik, yalançı 1 septalı, 10-12 x 2.5-3 μm, şəffaf. Yoxlanılıb: BAK 378, Bakı, Botanika bağı, *Hedera helix* L. üzərində.

14. *Ascochyta elaeagni* Sacc., Michelia 2(no. 6): 109 (1880).

Ləkələr səthi, oxra rəngi haşiyələnmiş, piknidilər nöqtəşəkilli-mərciməkvari, dəlikli, 80-100 μm diam.-dir; iyşəkilli sporlar, 8-10 x 3.5-4 μm, 1 septalı, açıq zeytun yaşılıdır. Yoxlanılıb: BAK 379, Masallı, Viləş (Kalinovka) kəndi, *Elaeagnus angustifolia* L. üzərində.

15. *Ascochyta fraxinifolia* Siemaszko, Arch. Nauk Biol. Towarz. Nauk. Warszawsk. 1, 14, 1923: 32 (holotype LE!). – *A. jasminicola* Canonaco, Boll. Stud. Inform. Reale Giardino Colon. 14, 23, 1936: 15 (extr.).

Piknidilər səthi, bitki toxumasına qismən batmış, itən, qəhvəyi rəngdə, diametri 130-140 μm, dairəvi məsaməli. Piknidi divarı kifayət qədər qalındır. Sporlar 6-8 × 3-4 μm, ellipsoid, uzunsov-ellipsoid və ya oval, hər iki ucu yuvarlaqlaşmış, düz, daralmamış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 389, Zəngilan, *Fraxinus excelsior* L. üzərində (Şəkil 1. ğ-x).

16. *Ascochyta graminicola* Sacc., Michelia 1(no. 2): 127 (1878).

Ləkələr zaman keçdikcə itir və ya bozlaşır, piknidilər qruplarla, nöqtəşəkilli və mərci-məkvari, diametri 100 μm. Sporlar uzunsov-oval, 15 × 3.5 μm, düz, 1 septalı, rəngsiz. Yoxla-nılıb: BAK 390, Masallı, Qızılağac kəndi, *Polypogon monspeliensis* Desf. üzərində (Şəkil 1. ı-j).

17. *Ascochyta hesperidearum* Penz. in Sacc., Michelia 2, 1880: 445.

Piknidi amfigen, səpələnmiş və ya qruplarla, qara rəngli, yarımkürəşəkilli, diametri 180-200 μm, dairəvi məsaməlidir. Sporlar 11-15 × 3-4 μm, uzunsov-iyşəkilli, sıxılmamış. Yoxla-nılıb: BAK 394, Astara, *Citrus limon* (L.) Osbeck üzərində.

18. *Ascochyta irpina* Sacc. & Trotter, Champignon Supérieurs du Maroc: 124 (1920).

Yuvarlaq ləkələr, səthi, ağımtıl, diametri 2-4 mm., dar qaramtıl xətt ilə əhatə olunmuşdur; kürəşəkilli-mərciməkvari piknidilər, 80-100 μm diametrli, qaramtıl; yuvarlaq bir məsamə ilə perforasiya edilmişdir; uzunsov-iyşəkilli sporlar 7-11 x 3-3.5 μm, hər iki tərəfi küt, dik, 1 sep-talı, daralmamış, qəhvəyidir. Yoxlanılıb: BAK 396, İsmayıllı, *Fagus orientalis* Lipsky üzərində.

19. *Ascochyta juglandis* (J.V. Almeida & Sousa da Câmara) Traverso & Spessa, Bol. Soc. Brot. 25, 1910:130. – *Diplodina juglandis* Brunaud sensu J.V. Almeida & Sousa da Câmara in J. V. Almeida, Contrib. Mycoflora Portug. 1903: 36.

Bu adın bazionimi *Diplodina juglandis* J.V. Almeida və Sousa da Câmara kimi göstərilmişdir, lakin Almeida (1903) yalnız *D. juglandis* Brunaud növündən bəhs etmişdir. Bununla belə, sonuncu müəllif tərəfindən bu növün təsviri *D. juglandis* Brunaud növünün ilkin diaqnozundan kəskin şəkildə fərqlənir. Almeida (1903) şübhəsiz ki, Portuqaliyada toplanmış fərqli bir göbələyi tədqiq etmişdir. Yuxarıda göstərilən birləşmə ICBN ilə ziddiyyət təşkil edir. Traverso və Spessa-nın orijinal materialı mövcud deyildi. Buna görə də, müvafiq göbələklərin taksonomiyası ilə bağlı yekun nəticə hələ mümkün deyil. Yoxlanılıb: BAK 397, Zaqatala, Danaçı kəndi, *Juglans regia* L. üzərində.

20. *Ascochyta kleinii* Bubák, Növ. Közl., Beibl 6(4): (45) (1907).

Piknidilər tam batmış, sarımtıl rəngli, kürəşəkilli, diametri 100-200 μm, kiçik papillat ostiol və dairəvi məsamə ilə əhatə olunmuş, kiçik qaramtıl hüceyrələrlə əhatə olunmuşdur. Piknidi

divarı nazikdir. Sporlar 13-18 × 2,5-3 μm, silindrik, hər iki ucu yuvarlaqlaşmış, düzdür. Yoxlanılıb: BAK 398, Bərdə, *Calystegia* sp. üzərində (Şəkil 1. k-m).

21. *Ascochyta lathyri* Trail, Scott. Naturalist (Perth) 3, 1887: 87.

Ləkələr yarpağın səthi boyunca yayılmış, piknidilər çoxlu sayda, yarımkürəşəkilli, 50-100 μm diam.-dir. Sporlar 8-10 × 2,5 μm, silindrik, hər iki ucu kütdür. Yoxlanılıb: BAK 1418, Kəlbəcər, *Lathyrus aphaca* L. üzərində.

22. *Ascochyta laurina* Tassi, Atti R. Accad. Fisiocrit. Siena, Sér. 4 8: 550 (1897) [1896].

Ləkələr dəyişkən formalıdır, əsasən kənarlara doğru yerləşir, quru-ağımtıl, qırmızı nazik xətt ilə haşiyələnmiş; piknidilər səpələnmiş, nöqtəşəkilli, mərciməkvari, 120-130 μm diam., əvvəlcə örtülmüş, sonradan dağılan, dar ağızcıqlı, kül rəngidir. Sporlar 6-7.5 x 2-2.5 μm, ellipsoid, 1 septalı, cüzi daralmış, şəffaf və ya açıq zeytunidir. Yoxlanılıb: BAK 400, Bərdə, *Laurus nobilis* L. üzərində.

23. *Ascochyta ligustri* Sacc. & Speg., Michelia 1, 1878: 165.

Piknidilər əsasən səthi, bərabər səpələnmiş, bitki toxumasına qismən batmış, zeytunşəkilli, tünd qəhvəyi və ya demək olar ki, qara, kürəşəkilli, mərciməkvari, bəzən mərkəzdə sıxılmış, diametri 90-200 μm., dairəvi məsamə ilə, diametri 20 μm-ə qədərdir. Piknidi divarı nazikdir. Sporlar 6-10 × 2-3 μm, ellipsoid, hər iki ucu yuvarlaqlaşmış, düz, bəzən bir qədər əyilmiş, daralmamış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 401, Bakı, Botanika bağı, *Ligustrum japonicum* Thunb. üzərində.

24. *Ascochyta mali* Ellis & Everh., Bull. Torrey bot. Club 27(2): 56 (1900).

Ləkələr ağac qabıqı üzərində dairəvi, 0,5-1 sm diametrdə basıq, solğun kərpici-qırmızı, haşiyə nazik, sərbəst, bəzən xeyli genişlənərək 2 sm-ə çatır. Piknidilər əvvəlcə tək, dairəvi ləkənin mərkəzində substratdan qalxır, tədricən eyni ləkədə 2-4 və ya daha çox səpələnmişdir: Sporlar 6-8 x 2.5-3.5 μm, uzunsov və ya uzunsov-ellipsoid, yarımşəffaf, 1 septalıdır. Yoxlanılıb: BAK 402, Lənkəran, *Malus sylvestris* (L.) Mill. üzərində.

Qeyd: Saccardoya görə bəzən eyni ləkənin üzərində *Ascochyta* cinsindən fərqli olaraq septasız sporları olan *Phoma* (*P. ambigua* Sacc.) və yaxud 20-27 x 1.25-1.5 μm sapvari sporlu *Phlyctaena* (*P. mali* E. & E.) növünə təsadüf edilir.

25. *Ascochyta mori* Maire, Ann. Mycol. 11, 1913: 354.

Piknidilər çox deyil, dağınıq, yarıbatmış, sarımtıl-qəhvəyi, bəzən qəhvəyi, mərciməkvari, mərkəzdə bir qədər sıxılmış, diametri 40-175 μm, qeyri-müəyyən məsaməli, diametri 15-30 μm, kiçik tünd rəngli hüceyrələrlə əhatə olunmuşdur. Sporlar (6.5) 8-11 × 2-3 μm, silindrik, bəzən uzunsov-ellipsoid, düz və ya bir qədər əyilmiş, bəzən çox solğun yaşılımtıl rənglidir. Yoxlanılıb: BAK 404, Lənkəran, *Morus alba* L. bitkisi üzərində, çox vaxt *Septogloeum mori* Briosi & Cavara ilə birlikdə.

26. *Ascochyta oleae* Scalia, Atti Accad. Giorn. di Sci. Natur., Catania, Ser. IV 13: 42 (1900).

Səthi ləkələr, piknidilər 140-160 x 180-195 μm, səpələnmiş, nadir hallarda qruplarla, qara rəngli, bitki toxumasına qismən batmış, yarımkürəşəkilli-yastıdır. Sporlar 7.5-11 x 3.5-5 μm, uzunsov, ilkin olaraq davamlı, şəffaf, açıq zeytunidir. Yoxlanılıb: BAK 406, Bakı, Botanika bağı, *Olea europaea* L. üzərində.

27. *Ascochyta orni* Sacc. & Speg., Michelia 1, 1878: 168.

Piknidilər amfigen, bir qədər itən, kürəşəkilli, 200 μm diam.-dir. Sporlar 10-11 × 2-2.5 μm, yumurtaşəkilli-iyşəkilli, daralmamış və ya bir qədər daralmış, demək olar ki, şəffafdır. Yoxlanılıb: BAK 411, Zəngilan, *Fraxinus excelsior* L. yarpaqlarında.

28. *Ascochyta paliuri* Sacc., Michelia 1, 1878: 166. – *A. rhamni* Lebedeva, Bot. Mat. Inst. Spor. Rast. Gl. Bot. Sada RSFSR 1, 10, 1922: 146 (holotype LE!). – *A. rhamni* W.B. Cooke & C.G. Shaw, Mycologia 44, 1952: 799.

Piknidilər əsasən səthi, səpələnmiş və ya qruplarla, tam batmış, solğun qəhvəyi və ya qəhvəyi, kürə və ya bəzən mərciməkvari, diametri 100-200 (300) µm, dairəvi məsamə ilə, diametri 20 µm-ə qədər, kiçik qara hüceyrələrlə əhatə olunmuş, bəzən kiçik papillat ostiola malikdir. Piknidi divarı nazikdir. Sporlar 7-12 × 3-4 µm, silindrik, hər iki ucu yuvarlaqlaşmış, düz, bəzən bir az əyilmiş, daralmamış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 412, Kəlbəcər, *Rhamnus cathartica* L. üzərində.



Şəkil 1. Ot, ağac və kol bitkiləri üzərində yayılmış *Ascochyta* göbələkləri: *Acer* sp. üzərində *A. acericola* Massa: a) simptomatik əlamətlər, b) parçalanmış vəziyyətdə piknidi, c) sporlar; *Berberis integerrima* Bunge üzərində *A. australis* Speg.: ç) simptomatik əlamətlər, d) piknidilər, e) sporlar; *Vicia narbonensis* L. üzərində *A. boltshauseri* Sacc.: ə) simptomatik əlamətlər, f) piknidilər, g) sporlar; *Fraxinus excelsior* L. üzərində *A. fraxinifolia* Siemaszko: ğ) simptomatik əlamətlər, h) piknidilər, x) sporlar; *Polypogon monspeliensis* Desf. üzərində *A. graminicola* Sacc.: ı) simptomatik əlamətlər, i) piknidi, j) sporlar; *Calystegia sepium* (L.) R.Br. üzərində *A. kleinii* Bubák: k) simptomatik əlamətlər, q-l) piknidi, m) 3 septalı spor. Miqyas:

29. *Ascochyta pallida* Kabát & Bubák, Hedwigia 47: 357 (1908).

Ləkələr hər iki tərəfdən aydın görünür, dairəvi və ya qeyri-müntəzəm, açıq oxradan açıq qəhvəyi rəngə qədər, məhdud olmayan, müxtəlif ölçülü, tez-tez birləşən və yarpağın daha böyük hissələrini, xüsusən də yarpağın kənarlarını əhatə edir. Meyvə cismi əsasən səpələnmiş, bəzən qruplarla, bitki toxumasına tam batmış, hər iki tərəfdən bir qədər çıxıntılı, kiçik, bir qədər tünd, papillaşəkilli məsaməli, kürəşəkilli yastı, solğundan qəhvəyiyə qədər, 100-190 μm diametrdə, çox böyük, iri hüceyrəli, solğun qəhvəyidir. Sporlar 6-9 x 3-4 μm, silindrik, uzunluğu hər iki tərəfi yuvarlaqlaşmış, düz, nadir hallarda əyilmiş, ortada eninə divarı olan, daralmamış və ya bir qədər daralmış, şəffafdır. Yoxlanılıb: BAK 1414, Laçın, Zabux kəndi, *Acer* sp. üzərində.

30. *Ascochyta pedicularis* (Rostr.) Arx, Verh. K. ned. Akad. Wet., tweede sect. 51(3): 116 (1957).

Piknidilər çoxlu, dağınıq, tam batmış, qəhvəyidən tünd qəhvəyi və ya demək olar ki, qara rəngdə, kürəşəkilli və ya konusvari, diametri 180-360 μm, dairəvi məsamə, diametri 50 μm -ə qədər, papillaşəkilli ostiola malikdir. Piknidi divarı qalındır. Sporlar (10) 12-24 (26) × (2,7) 3-4,5 (5) μm, silindrik, bəziləri uzunsov-ellipsoid, hər iki ucu yuvarlaq, bəzən bir ucu bir qədər daralmış, düz, bəzən bir az əyilmiş, sıxılmamışdır. Yoxlanılıb: BAK 413, Naxçıvan MR, Şahbuz rayonu, Kükü kəndi, *Pedicularis sibthorpii* Boiss. üzərində.

31. *Ascochyta plantaginicola* Melnik, Nov. Sist. Niz. Rast. 1970: 249.

Piknidilər əsasən epifil, tam batmış, sarı-qəhvəyi, mərciməkvari, bəzən mərkəzdə sıxılmış, diametri 90-160 μm, dairəvi məsamə, 20-25 μm diametrdə, kiçik tünd hüceyrələrlə əhatə olunmuş, bəzən kiçik papillat ostiol ilə əhatə olunmuşdur. Piknidi divarı nazikdir. Sporlar 6-12 × 2,5-4,5 μm, silindrik və ya demək olar ki, ellipsoid, hər iki ucu dairəvi, düz, çox nadir hallarda bir az əyilmiş, sıxılmamışdır. Yoxlanılıb: BAK 426, Ağdərə, *Plantago major* L. üzərində.

32. *Ascochyta quercus* Sacc. & Speg., Michelia 1, 1878: 162. Fig. 37, p. 80.

Piknidilər epifil, səpələnmiş, bitki toxumasına tam batmış, solğundan tünd qəhvəyi rəngə qədər, mərciməkvari, diametri 120-150 μm, dairəvi məsamə 15-25 μm diam.-dir. Piknidi divarı nazikdir. Sporlar 7-14 × 3-4.5 μm, silindrik və ya uzunsov-ellipsoid, hər iki ucu geniş dairəvi, düz, sıxılmamışdır. Yoxlanılıb: BAK 433, 434, Şamaxı, Xaçmaz, Yalama kəndi, *Quercus petraea* subsp. *iberica* (Steven ex M. Bieb.), *Quercus longipes* Steven (current: *Quercus robur* subsp. *pedunculiflora* (K. Koch) Menitsky) üzərində.

33. *Ascochyta quercus-ilicis* Güssow, J. Bot., Lond. 46: 123 (1908).

Piknidilər səpələnmiş, bir qədər konusvari, nöqtəşəkilli, qaramtıl yaşıl, yarpaqların aşağı səthində böyüyür, diametri 110-130 μm, ulduzvari tüklərlə örtülür. Sporlar 12-14 x 3-4 μm, mizraq şəkilli, 1 septalı, ortada bir qədər daralmış, şəffafdan açıq yaşıl rəngə qədərdir. Yoxlanılıb: BAK 432, Botanika Bağı, *Quercus helferiana* A.DC. üzərində.

34. *Ascochyta sophorae* Allesch., Hedwigia 36(Beibl.): (163) (1897).

Səpələnmiş piknidilər; bitki toxumasına tam batmış, qara rənglidir. Subsilindrik sporlar təqribən 10-14 x 2 μm, hər iki tərəfdən küt, 1 septalı, daralmamış, yarımşəffafdır. Yoxlanılıb: BAK 443, Bakı, Botanika bağı, *Styphnolobium japonicum* (L.) Schott üzərində.

35. *Ascochyta stellariae* Fautrey, Rev. Mycol. (Toulouse) 18, 1896: 68 (isotype LEP!). Fig. 25, p. 68.

Piknidilər epifil, bərabər səpələnmiş, tam batmış, solğun qəhvəyi, kürəşəkilli, diametri 180 μm-ə qədər, dairəvi məsamə ilə, 25-30 μm diametrli, kiçik qaramtıl hüceyrələrlə əhatə olunmuşdur. Piknidi divarı çox nazik, incədir. Konidilər geniş iyşəkilli və ya silindrik, hər iki ucu incə, lakin dairəvi, düz, sıxılmamış, 12-23 × 4.5-6 μm. Yoxlanılıb: BAK 448, Bakı, Botanika bağı, *Stellaria media* (L.) Cyr. üzərində.

36. *Ascochyta tremulae* Thüm., Fungi austr. exsicc.: no. 82 (1871)

Ləkələr kiçik, yuvarlaq, tünd haşiyəlidir. Sporlar 12-20 x 3-5 μm ölçülüdür. Yoxlanılıb: BAK 453, Xaçmaz, Yalama kəndi, *Populus alba* L. üzərində.

37. *Ascochyta tussilaginis* Oudem., Hedwigia 37, 1898: 178.

Piknidilər əsasən epifil və gövdələrində, səpələnmiş və ya bəzən kiçik qruplarla, gövdələrində daha bərabər səpələnmiş, yarı batmış, solğundan tünd qəhvəyiyə qədər, gövdələrdə demək olar ki, qara, kürəşəkilli, diametri 70-150 μm, dairəvi məsamə ilə, gövdələrdə tez-tez kiçik papillat ostiol ilə xarakterizə olunur. Sporlar 8-15 (18) × 3-4 (4.5) μm, silindrik, bəzi uzunsov-ellipsoid və ya bir qədər klavatvari, hər iki ucu yuvarlaqlaşdırılmış, düz və ya bəzən bir qədər əyilmiş, mərkəzi hissədən daralmamış və ya bir qədər daralmışdır. Yoxlanılıb: BAK 1413, Laçın, *Tussilago farfara* L. üzərində.

38. *Ascochyta ventricosa* Penz. & Sacc., Atti Inst. Veneto Sci. lett., ed Arti, Sér. 6 2(5): 657 (1884).

Piknidilər kiçik, kürəşəkilli-mərciməkvari, basıq, nazik membran kontekstli, qəhvəyi, 130-140 μm diam.-dir. Sporlar 7-9 x 4.5-6 μm, ellipsoid və ya yumurtaşəkilli, ventrikozlu, çox aydın orta çəpərli, 1 septalı, sıxılmamış, hər iki tərəfi yuvarlaqlaşmış, açıq qəhvəyidir. Yoxlanılıb: BAK 456, Lənkəran, *Gleditsia caspia* Dst. üzərində.

39. *Ascochyta viciae* Lib., Pl. Crypt. Ard.: no. 356 (1837) (isotype LE!).

Piknidilər epifil və sahib bitkilərin digər hissələrində, bərabər səpələnmiş və ya bəzən qruplarla, tez-tez 2-3 piknidi birləşmiş, tam və ya batmış, solğun qəhvəyi və ya qəhvəyi, bəzən demək olar ki, qara, kürəşəkilli və ya lentiformalı, 250-ə qədər μm diam., bəzən diametri 630 μm-ə qədər, dairəvi məsaməli, kiçik qaramtıl hüceyrələrlə əhatə olunmuşdur. Piknidi divarı nazikdir. Sporlar 12-17 × 3-5 μm, silindrik, bəzən uzunsov formalı, hər iki ucu yuvarlaqlaşmış, düz və ya bəzən bir az əyilmiş, az və ya çox daralmışdır. Yoxlanılıb: BAK 462, Naxçıvan MR, Ordubad rayonu, Ordubad şəhəri, *Vicia narbonensis* L. üzərində.

40. *Ascochyta violae* Sacc. & Speg., Michelia 1, 1878: 163.

Piknidilər dağınıq, qəhvəyi, kürəşəkilli, diametri 180-200 μm, məsaməli, kiçik tünd hüceyrələrlə əhatə olunmuşdur. Sporlar 15-18 × 3.5-4 μm, iyşəkilli, daralmamışdır. Yoxlanılıb: BAK 463, Şamaxı, Çuxuryurd kəndi, *Viola* sp. üzərində.

Tədqiqat işində *Ascochyta* cinsinə aid göbələklərin sahib bitkiləri araşdırılmışdır. Təyin edilmiş növlərin sahib bitkiləri 12-i ot, səkkizi kol və 20-i ağac olmaqla 40 növ olaraq müəyyənləşdirilmişdir. Bu göbələklərin bütövlükdə 16 sıraya (Apiales, Asterales, Buxales, Caryophyllales, Cucurbitales, Fabales, Fagales, Lamiales, Laurales, Malpighiales, Malvales, Poales, Ranunculales, Rosales, Sapindales, Solanales) aid 26 fəsilə, 34 cins, 39 bitki növü üzərində patogenlik etdiyi müəyyənləşdirilmişdir (Cədvəl 1, Şəkil 2).

Sahib bitkilər araşdırılarkən göbələklərin fəsilələr üzrə yayılmasına xüsusi diqqət yetirilmiş, müəyyən edilmişdir ki, Fabaceae (*Ascochyta boltshauseri*, *Ascochyta lathyri*, *Ascochyta sophorae*, *Ascochyta ventricosa*, *Ascochyta viciae*), Oleaceae (*Ascochyta fraxinifolia*, *Ascochyta ligustri*, *Ascochyta oleae*), Fagaceae (*Ascochyta irpina*, *Ascochyta quercus-ilicis*, *Ascochyta quercus*) və Rutaceae (*Ascochyta citri*, *Ascochyta citricola*, *Ascochyta hesperidearum*) fəsilələrinə aid bitkilər üzərində patogenlik edən göbələklərin növ sayı baxımından üstünlük təşkil edirlər.

Cədvəl 1. *Ascocyhta* cinsi göbələklərin sahib bitki aralığı.

№	Sıra	Fəsilə	Cins	Növ
1	Laurales	Lauraceae	*Laurus* L.	*Laurus nobilis* L.
2	Poales	Poaceae	*Polypogon* Desf.	*Polypogon monspeliensis* Desf.
3	Ranunculales	Berberidaceae	*Berberis* L.	*Berberis integerrima* Bunge
4	Buxales	Buxaceae	*Buxus* L.	*Buxus sempervirens* L.
5	Fabales	Fabaceae	*Gleditsia* L.	*Gleditsia caspia* Dst.
			Lathyrus L.	*Lathyrus aphaca* L.
			Styphnolobium Schott	*Styphnolobium japonicum* (L.) Schott
			Vicia L.	*Vicia* sp. *Vicia narbonensis* L.
6	Rosales	Rosaceae	*Crataegus* L.	*Crataegus caucasica* K. Koch.
			Malus Mill.	*Malus sylvestris* (L.) Mill.
		Elaeagnaceae	*Elaeagnus* L.	*Elaeagnus angustifolia* L.
		Rhamnaceae	*Rhamnus* L.	*Rhamnus cathartica* L.
		Moraceae	*Ficus* L.	*Ficus carica* L.
			Morus L.	*Morus alba* L.
7	Fagales	Fagaceae	*Fagus* L.	*Fagus orientalis* Lipsky
			Quercus L.	*Quercus helferiana* A. DC. *Quercus petraea* subsp. *iberica* (Steven ex M. Bieb.) Krassiln. *Quercus robur subsp. pedunculiflora* (K. Koch) Menitsky
		Betulaceae	*Corylus* L.	*Corylus avellane* L.
		Juglandaceae	*Juglans* L.	*Juglans regia* L.
8	Cucurbitales	Cucurbitaceae	*Cucurbita* L.	*Cucurbita pepo* L.
9	Malpighiales	Violaceae	*Viola* L.	*Viola* sp.
		Salicaceae	*Populus* L.	*Populus alba* L.
10	Sapindales	Sapindaceae	*Acer* L.	*Acer cappadocicum* Gled. *Acer* sp.
		Rutaceae	*Citrus* L.	*Citrus deliciosa* Ten. *Citrus limon* (L.) Osbeck
11	Malvales	Malvaceae	*Alcea* L.	*Alcea tabrisiana* (Boiss. & Buhse) Iljin
12	Caryophyllales	Caryophyllaceae	*Stellaria* L.	*Stellaria media* (L.) Cyr.
13	Solanales	Convolvulaceae	*Calystegia* R.Br.	*Calystegia* sp.
		Solanaceae	*Solanum* L.	*Solanum nigrum* L.
14	Lamiales	Oleaceae	*Fraxinus* L.	*Fraxinus excelsior* L.
			Ligustrum L.	*Ligustrum japonicum* Thunb.
			Olea L.	*Olea europaea* L.
		Plantaginaceae	*Plantago* L.	*Plantago major* L.
		Orobanchaceae	*Pedicularis* L.	*Pedicularis sibthorpii* Boiss.
15	Asterales	Asteraceae	*Tussilago* L.	*Tussilago farfara* L.
16	Apiales	Araliaceae	*Hedera* L.	*Hedera helix* L.
Cəmi	16	26	34	39



Şəkil 2. *Ascochyta* cinsinə aid göbələklərin patogenlik etdiyi bitki fəsilələri üzrə say dinamikası.

Sahib bitkilər arasında bəzi növlər təsərrüfat əhəmiyyəti kəsb edir. Onlardan *Citrus* L. cinsinə aid növlərdə təsadüf edilən, Azərbaycanda da qeydə alınmış *Ascochyta citri* və *Ascochyta citricola* bitkilər üzərində ciddi xəstəlik törədicisi hesab edilməsə də, *Ascochyta corticola* McAlpine ciddi patogen hesab edilir. Bu növ Azərbaycanda qeydə alınmamışdır. *Solanum nigrum* və *Cucurbita pepo* üzərində üzərində qeydə alınmış *Ascochyta solanicola*, *Ascochyta cucumeris* növləri bütün dünyada geniş yayılmış ciddi patogenlər hesab olunurlar. Bu növlər Azərbaycanda yalnız bir sahib bitki üzərində qeydə alınmaqlarına baxmayaraq, onların dünya üzrə sahib bitki aralığı olduqca genişdir. *Ascochyta cucumeris* növü demək olar ki, bütün Cucurbitaceae fəsiləsinə aid bitkilərdə qeydə alınmışdır [11]. Ağac bitkiləri üzərində daha çox növə təsadüf edilir ki, onlardan *Ascochyta quercus* bütün Avropa üzrə obliqat parazit hesab edilir.

YEKUN

Ascochyta cinsi ilk dəfə müəyyən edildiyi gündən hal-hazıradək bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Fabaceae, Cucurbitaceae və digər fəsilələrə aid mühüm sahib bitkilər üzərində iqtisadi əhəmiyyətli parazitlər olan bu göbələklərin fiziologiyası və biologiyasına dair ədəbiyyatlar kifayət qədər çoxdur. Lakin, buna baxmayaraq onların molekulyar-genetik, karioloji, sitoloji tədqiqatlar əsasında öyrənilməsinə dair məlumatlara praktiki olaraq rast gəlinmir [11]. Dünyanın demək olar ki, hər yerində geniş yayılmış askoxitoz törədicilərinin səbəb olduğu xəstəliklər nəzərə alınarsa bu göbələklərin öyrənilməsinin aktual olduğunu qeyd etmək olar. Bu baxımdan cinsin növləri istər dünyada, istərsə də ölkəmizdə yeni metodlar əsasında dərindən öyrənilməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, *Ascochyta* cinsi *Phoma* cinsi ilə oxşar əlamətləri paylaşır və bir sıra növlərin statusu hələ də tam dəqiqləşməmişdir. Bu işin məqsədi *Ascochyta* cinsinin növ siyahısını tərtib etmək və onların sahib bitkilərini araşdırmaqla ölkəmizdə gələcək tədqiqatlar üçün ilk zəmin yaratmaqdır.

ƏDƏBİYYAT

1. Bahçecioğlu Z., Kabaktepe Z. (2013) Checklist of *Ascochyta* (Pleosporales, Ascomycota) Species found in Turkey. *Forestist*, 63: 47-49.
2. Połeć E., Ruszkiewicz-Michalska M. (2011) Some interesting species of the genus *Ascochyta*. *Acta Mycologica,* 46(2): 187-200.
3. Kosiada T. (2012). *In vitro* growth of some species of *Ascochyta* Lib., *Central European Journal of Biology*, 7(6): 1076–1083. doi:10.2478/s11535-012-0095-3.
4. Peever T.L., Barve M.P., Stone L.J., Kaiser W.J. (2007) Evolutionary relationships among *Ascochyta* species infecting wild and cultivated hosts in the legume tribes *Cicereae* and *Vicieae*. *Mycologia*, 99(1): 59-77. doi:10.3852/mycologia.99.1.59.
5. Bretag T.W., Keane P.J., Price T.V. (2006) The epidemiology and control of ascochyta blight in field peas: a review. *Australian Journal of Agricultural Research,* 57(8): 883-902. doi:10.1071/AR05222.
6. Jayasiri S.C., Hyde K.D., Jones E.B.G., Jeewon R., Ariyawansa H.A., Bhat J.D., Camporesi E., Kang J.C. (2017) Taxonomy and multigene phylogenetic evaluation of novel species in *Boeremia* and *Epicoccum* with new records of *Ascochyta* and *Didymella* (Didymellaceae). *Mycosphere*, 8(8): 1080-1101, Doi 10.5943/mycosphere/8/8/9
7. Aveskamp M.M., de Gruyter J., Woudenberg J.H.C., Verkley G.J.M. & Crous P.W. (2010) Highlights of the Didymellaceae: A polyphasic approach to characterise *Phoma* and related pleosporalean genera. *Studies in Mycology,* 65: 1–60.
8. Boerema G.H., Bollen G.J. (1975) Conidiogenesis and conidial septation ads differentiating criteria between *Phoma* and *Ascochyta*. *Persoonia*, 8: 111–144.
9. Aveskamp M.M., de Gruyter J., Crous P.W. (2008) Biology and recent developments in the systematics of *Phoma*, a complex genus of major quarantine significance. *Fungal Diversity*, 31: 1–18.
10. Мельник В.А. Определитель грибов рода *Ascocyta* Lib., Ленинград: Изд. наук., 1977, 246 с.
11. Melnik V.A., Braun U., Hagedor G. (2000) Key to the fungi of the genus *Ascochyta* Lib. (Coelomycetes). Berlin: Parey Buchverlag, 379: 1-192.
12. Ахундов Т.М. (1979) Микофлора Нахичеванской АССР. Баку: Элм, 168 с.
13. Мехтиева Н.А. (1956) Материалы к микофлоре Куба-Хачмасского массива. *Изв. АН Азерб. ССР*, 12(3):117-131.
14. Шипинова С.И. (1954) Краткий обзор болезней овощебахчевых культур в основных овощеводческих районах Азербайджанской ССР. *Изв. АН Азерб. ССР*, 2: 67-75.
15. The Angiosperm Phylogeny Group (2016) An update of the Angiosperm Phylogeny Group classification for the orders and families of flowering plants: APG IV. *Botanical Journal of the Linnean Society*, 181:1-20.
16. World Flora Online: http://www.worldfloraonline.org.
17. Mycobank: https://www.mycobank.org.

INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Journal-Chemistry and Biology" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

Samples:

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference."*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University-Kimya və Biologiya"- əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və grafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Nümunələr:

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

YAZIM KURALLARI

1. "Journal of Baku Engineering University- Kimya ve Bioloji" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Resim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

Örnekler:

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyüklükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesafesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No'lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Химии и биологии публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.
2. Статьи принимаются на английском языке.
3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес **(journal@beu.edu.az)**. Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.
5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.
6. В статье должны быть указаны коды UOT и PACS.
7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.
9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необходимо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы симпозиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

Например:

a) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Palatino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.
12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.